# QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 200 (6164) 11 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Mehriban Əliyeva: Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu!



Bax 10

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki...

## "Qələbəmizin həlledici amili ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır"




Bax 10

Noyabrın 10-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Vətən müharibəsində qazanılmış qələbə münasibətilə videokonfrans keçirilib.

# Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı!

*Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*



Bax 2

## Azərbaycan xalqı öz tarixinin ən möhtəşəm zəfərini bayram edir!



Bax 12

## Mövlud Çavuşoğlu: "Bundan sonrakı mərhələdə də Azərbaycanın yanında olacağıq"



## Naxçıvan 30 ildən sonra blokadadan azad olunur



### Konstantin Kosaçov: Ermənistan üçtərəfli sazişə görə öz üzərinə düşən öhdəlikləri yerinə yetirməyə hazır olduğunu göstərməlidir



Bax 12

### Rasim Quliyev: "Biz hərbi gücümüzü nümayiş etdirdik və hərb meydanında qalib gəldik"



Bax 10

### Ukraynalı deputat: Azərbaycan Ordusu erməni tərəfi sarsıdıcı məğlubiyyətə uğratdı



Bax 12

# Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı!

*Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

***Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.***

Prezident İlham Əliyevin müraciəti

-Əziz həmvətənlər.

Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar. İstərdim ki, bəyanatın mətni ilə sizi tanış edim:

"Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının

baş naziri və Rusiya Federasiyasının Prezidentinin

bəyanatı

Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.



**"Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!"**

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidenti".

X X X

Əziz həmvətənlər, əziz bacılar və qardaşlar.

Bu bəyanatın tarixi əhəmiyyəti var. Bildirməliyəm ki, bu bəyanat videokonfrans şəklində imzalanmışdır və ilk mərhələdə 3 ölkənin başçısı bu videokonfrans vasitəsilə bəyanatı imzalamalı idilər. Ancaq son anda Ermənistan baş naziri bundan imtina edib. Bu, müəyyən dərəcədə başadüşüləndir. Çünki faktiki olaraq bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Ona görə bu bəyanat videokonfrans formatında Rusiya Prezidenti və mən imzalamışıq və bu bəyanat rus dilində tərtib edilibdir. Mənim burada imzam var, bu sənəd bu imzalamadan sonra Rusiya səfirinə təqdim edilib və Rusiya və Ermənistan dövlət, hökumət başçıları bu sənədi imzalayacaqlar.

Bir daha demək istəyirəm ki, Ermənistan baş naziri Paşinyanın bu hərəkəti başadüşüləndir. Halbuki hesab edirəm ki, hər bir insan öz əməllərinə görə cavab verməlidir. Hər bir insan hətta onun üçün, ölkəsi üçün ən ağır, ən kritik vəziyyətdə özünə hörmət saxlamalıdır. Onsuz da Paşinyan bunu imzalayacaq. Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalayacaq. Öz xoşu ilə bunu imzalamır. Bunun - dəmir yumruğun hesabına imzalayır!

Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi mənа daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur.

Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub. Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır. Bu, böyük xoşbəxtlikdir. Mən fürsətdən istifadə edərək, Ağdam, Laçın, Kəlbəcər rayonlarının sakinlərini, bütün Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Hər dəfə işğal altında olan hansısa rayon, şəhər işğaldan azad edildəndə mən o şəhər və rayonların sakinlərini təbrik edirdim, təsəvvür edirəm ki, onların həyatında bu nə deməkdir. Onların bəziləri, bəlkə də bir çoxları görəndə ki, uzun illər ərzində məsələ öz həllini tapmır artıq ümidlərini itirmişdilər. Mən son 17 il ərzində köçkünlərlə çoxsaylı görüşlərimdə, onlar üçün yeni evlərin təqdimat mərasimlərində gördürdüm ki, ildən-ilə onların ümidləri azalır. Gördürdüm, ürək ağrısı ilə bunu gördürdüm. Gördürdüm ki, artıq onların bəziləri ümidlərini itirib. Bəli, təşəkkürünü bildirirdilər, təbii ki, onlara yaxşı şərait yaradılırdı, onların problemləri həll olunurdu. Bilirsiniz ki, məcburi köçkünlər üçün Azərbaycanda görülən işlər heç bir başqa ölkədə görülmür. Dünyanın bir çox ölkələrində köçkünlər var, amma bizim köçkünlərimizin vəziyyəti o biri ölkələrdə yaşayan köçkünlərlə müqayisəedilməz dərəcədə müsbətdir.

Ardı Səh. 3

# Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı!

*Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

Əvvəli Səh. 2

Amma onların əsas arzusu doğma torpaqlara qayıtmaqdır və məndən xahiş edirdilər, cənab Prezident, qaytar bizi. Mən də hər dəfə onlarla görüşəndə həm onlarda güclü iradə görürdüm, yenilməzlik görürdüm, dövlətə sədaqət görürdüm, eyni zamanda, onların gözlərində nisgil, həsrət görürdüm. Buna son qoyulub, əziz soydaşlarım, gözünüz aydın olsun, siz qayıdırsınız, biz qayıdırıq, Azərbaycan qayıdır! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir. Bundan da böyük xoşbəxtlik ola bilərmi!

Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. İndi bütün dünya görür ki, mənfur düşmən bu torpaqları hansı vəziyyətə salıb. Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq. Xocalı qurbanlarının da qisasını aldıq, şəhidlərimizin də qisasını aldıq.

Mən noyabrın 8-də Şuşanın azad edilməsi ilə əlaqədar xalqıma müjdə verərkən bildirmişdim ki, şəhidlərin ruhu qarşısında baş əyirəm. Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq. Onlar torpağımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq! Heç bir danışıqlar bizi maraqlandırmır. Siz də yaxşı bilirsiniz ki, son bir il ərzində mən danışıqlar haqqında, ümumiyyətlə, söhbət aparmıram. Xalqımı aldatmaq istəmirdim, heç vaxt aldatmamışam və aldatmayacağam. Azərbaycan xalqı bunu bilir. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi. Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!

Sentyabrın 27-də nə baş verib, onu tarixçilər deyəcək. Necə başlayıb, onu hesab edirəm ki, bir çoxları bilir. Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq. Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik.

Onların demək olar ki, bütün texnikasını məhv etmişik, darmadağın etmişik. Bu 30 il ərzində qurulmuş istehkamları keçmişik, əsgərlərimiz aslan kimi keçiblər, əziblər düşməni keçiblər, əcəb də ediblər, öz torpağında. Biz beynəlxalq hüquqa əməl edirik, biz beynəlxalq hüquqa hörmət göstəririk. Biz mülki vətəndaşlardan intiqam almamışıq, heç vaxt almayacağıq və məhz buna görə mülki vətəndaşlar arasında düşmən tərəfdə itkilər çox azdır. Onlar nə etdilər? Onlar döyüş meydanında duruş gətirə bilmədilər, qaçdılar, ondan sonra ballistik raketlərlə mülki vətəndaşlara atəş açdılar. Bu, hərbi cinayətdir. Onlar bu hərbi cinayətə görə cavab verəcəklər. Gəncə şəhərini Ermənistandan ballistik raketlərlə vurmaq alçaqlıqdır, alçaq hərəkətdir, cinayətdir. Bərdəni kasetli bombalarla atəşə tutmaq hərbi cinayətdir. Mən demişəm Tərtər şəhəri, İkinci Dünya müharibəsi dövründə dağılmış Stalinqrad şəhərinə bənzəyir. Gündə, - özü də böyük şəhər deyil, - yüzlərlə mərmi düşürdü, amma bir nəfər də tərpənmədi. Amma ermənilər qaçıb getdilər. Onların "yenilməz" ordusu məhv oldu, fərarilik başladı, xunta başçısı Dağlıq Qarabağda əmr verdi ki, kim oradan qaçacaq, o, məsuliyyətə cəlb olunacaq. Bizdə BİR nəfər fərari oldumu? Olmadı! Bir nəfər də olmadı! Budur Azərbaycan xalqı! Mülki vətəndaşlar, evi dağılıb, malı batıb, yaxın insanını itirib, yenə də deyir ki, "Vətən sağ olsun". Ancaq irəli, irəli! Mənə yazılan məktublarda deyilir, Ali Baş Komandan, irəli! Dəstəkləyirik səni, get irəli, dayanma və getmişəm, dayanmamışam.

Bu müharibə dövründə 30-a yaxın müsahibə vermişəm. Ömrümdə bəlkə də bu qədər müsahibə verməmişəm və bəziləri deyirlər ki, İlham Əliyev nə üçün müsahibə vermir. Hesab edirdim ki, mən öz mövqeyimi ifadə etmək üçün kifayət qədər imkanlara malikəm, tez-tez bütün məsələlərlə bağlı öz fikirlərimi bildirirəm. Mənim bütün fəaliyyətim şəffafdır, keçirdiyim bütün iclaslar ictimaiyyətə təqdim edilir. Lüzum bilirdim onda. Amma lazım olan vaxtda 30-a yaxın müsahibə vermişəm və o müsahiblərdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. Demişdim ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb. İntiqamımızı düşməndən aldıq, işğalçıdan aldıq. Mülki vətəndaşlarla bizim işimiz olmayıb və olmayacaq. Düşmənin məskunlaşdığı, gizləndiyi şəhərlərdə böyük dağıntılar yoxdur. Çünki biz mülki obyektlərə atəş açmamışıq. Bax, bizim fərqimiz bundan ibarətdir.

Mən bu müharibə başlayandan sonra demişdim ki, bir çoxları, demək olar, bu məsələ ilə məşğul olan siyasətçilərin hamısı deyirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən nə deyirdim? Deyirdim ki, var! Məni tənqid edirdilər ki, İlham Əliyev nə danışır? Yoxdur hərbi həlli. Dedim yaxşı yoxdursa, onda bunu sülh yolu ilə həll edin. Sizin əlinizdə bu imkanlar var. Siz böyük dövlətlərsiniz, böyük nüfuzunuz var, böyük imkanlarınız var. Nədir ki, sizin qabağınızda Ermənistan, nədir ki, ona təsir edə bilmirsiniz? Bəlkə təsir etmək istəmirsiniz? Yox, deyirdilər ki, olmaz müharibə aparmaq, sülh yolu ilə. Sülh yolu ilə 1 il, 2 il, daha 30 il sülh yolu ilə? Bizim başımızı nə qədər aldatmaq olar? Amma biz sübut etdik ki hərbi həlli var. Və mən demişdim ki, mən istəyirəm və Paşinyan, deyirəm sənə, bəyanat ver, öhdəlik götür, qrafik ver, cədvəl ver. Müharibənin ilk günündən mən bunu deyirdim. Hər kəs də bunu görə bilər. Müsahibələrimdə, xalqa müraciətlərimdə açıq demişəm, qrafik ver, cədvəl ver, rədd ol, çıx get, mən dayanıram. Yoxsa oradan deyirlər dayanın, buradan deyirlər dayanın. Yaxşı, bizim torpaqlarımızı işğal edəndə niyə bunlara "dayanın!" deyən olmadı? Bizim torpağımızı 30 il əsarət altında saxlayan Ermənistana nə üçün "buradan çıx get!" deyən olmadı? Bu, nədir? Yaxşı, biz indi öz gücümüzə güvənərək bu torpaqları şəhid verə-verə, qan tökə-tökə azad edirik, bizə "dayanın" deyirsən, ona də ki, çıx. Demir. Bizə deyir dayan. Dedim dayanmayacağam mən. Heç kim məni dayandıra bilməz və dedim tələb edirəm səndən Paşinyan, şəxsən özün, sənin xarici işlər nazirin, nə bilim o biri, bu biri yox, şəxsən özün öhdəlik götürməlisən, tarix verməlisən nə vaxt rədd olursan bizim torpaqlarımızdan. Bax bu bəyanatda o öhdəlik var. Məcbur edirik onu, məcbur etdik, zorla məcbur etdik, başına vura-vura məcbur etdik, bütün bəd əməllərinə görə, o donuzları bizim məscidlərimizdə saxladığına görə. Bizim məscidlərimizdə donuz saxlayan özü donuzdur. İndi bu sənəddə öhdəlik var. Dekabrın 1-nə qədər rədd olacaq qalan işğal edilmiş torpaqlardan. Ona görə məsələnin hərbi yolu var. Amma mən deyirdim, istəyirəm ki, bu hərbi mərhələ də dayansın, keçək siyasi mərhələyə. Nə oldu? Mən deyən oldu. Bax, bu gün mən deyən oldu. Hərbi mərhələ başa çatır, keçirik siyasi məsələyə. Demək olar ki, bizə maksimum sərf edən sənəd imzalandı. Paşinyan onu imzaladı. Başqa yolu yox idi. Əslində, bu, məğlubiyyətin etirafıdır. Bu, hərbi kapitulyasiyadır. Prinsip etibarilə mən tələb edə bilərdim ki, gəlsin otursun orada, aşağıda, bax orada imzalasın onu. Amma mən belə adam deyiləm. Mən nə üçün kimisə alçaldım. O onsuz da özünü alçaldıb. Bu rəzil duruma özü-özünü salıb. Gərək orada qarnını qabağa verib, sərxoş vəziyyətdə Cıdır düzündə rəqs edəndə bu günü fikirləşərdi ki, gün gələcək hesabını verəcəksən, verirsən. Bax belə. Heç kim bizimlə zarafat edə bilməz. Heç kim Azərbaycan xalqının səbri ilə oynaya bilməz. Heç kim bizi təhqir edə bilməz. Edərsən, dərsini alarsan. Necə ki, dərsini vermişik.

Ona görə məsələnin həlli artıq təmin edilib. Əlbəttə, əgər Ermənistan atəşkəsə əməl etsə, - mən artıq bütün əmrlərimi vermişəm, - komandanlıqlara əmrimi vermişəm, biz dayanırıq. Biz imzamıza hörmətlə yanaşırıq. Qarşı tərəf də dayanmalıdır. Çünki dayanmasa, biz də dayanmayacağıq.

> **Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır. Bu, böyük xoşbəxtlikdir**

Ardı Səh. 4

# Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı!

*Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

Əvvəli Səh. 3

İndi beynəlxalq müşahidəçilər yaxşı bilirlər ki, kim atəşkəsi pozub. Birinci dəfə kim pozub Gəncəni ballistik raketlə bombalayanda, ikinci dəfə kim pozub beş dəqiqə atəşkəs vaxtından keçməmiş və üçüncü dəfə Bərdəni kasetli raketlərlə vurmaqla. İndi bu dəfə də pozsa, artıq mən hesab edirəm ki, özü lap peşman olacaq. Ona görə biz istədiyimizə nail ola bilmişik.

Biz düşməni məcbur edə bilmişik. Mən faktiki olaraq onlara ultimatum vermişəm. Demişəm ki, çıxmalısan, çıxmasan sona qədər gedəcəyəm. Sona qədər! Ayın 8-də Şəhidlər xiyabanında demişəm ki, sona qədər gedəcəyəm və heç bir qüvvə məni dayandıra bilməz.

Biz bu qələbəni döyüş meydanında qazandıq. 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Şuşa şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi, digər qəsəbələr döyüş meydanında azad edildi.

Bu qələbələr düşməni məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonları bizə siyasi yollarla qayıdır. Amma burada Ermənistan tərəfinin xoş niyyətini axtarmaq yersizdir. Onlarda xoş niyyət deyilən anlayış bütövlükdə yoxdur. Sadəcə olaraq, məcbur olub. Çünki bilirdi ki, bu sənədə imza atmasa, özümüz alacağıq bu torpaqları. Hər kəs bunu bilirdi. Mən demişdim ki, qan tökmək istəmirəm, müharibəni dayandırmalıyıq, rədd olsun bizim torpaqlarımızdan! Belə də oldu.

Mən bir məsələni də qeyd etmək istərdim. Mən əziz xalqımı sənədin mətni ilə tanış etdim. Burada yeni nəzarət mexanizmi tətbiq edilir. Bəyanatın beşinci bəndində yazılıb: "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır". Mən deyə bilərəm ki, bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Beləliklə Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaqdır.

Mən videokonfrans formatında imzalama mərasimindəki çıxışımda həm Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın, həm Rusiya Prezidenti Vladimir Putinın səylərini yüksək qiymətləndirdim. Çünki onlar doğrudan da bu 44-45 gün ərzində böyük səylər göstərmişlər ki, məsələ sülh yolu ilə həll olunsun. Eyni zamanda, mən çox şadam ki, artıq münaqişənin dayandırılmasında bu iki lider öz müsbət rolunu oynayıb. Hesab edirəm ki, bu, eyni zamanda, bölgədə gələcək əməkdaşlıq formatını da böyük dərəcədə müəyyən edir. Çünki Türkiyə ilə Rusiya arasındakı əlaqələr bu gün tarixə baxsaq, hesab edirəm ki, ən yüksək səviyyədədir. Hər iki ölkə bizim üçün dost, qonşu ölkədir. Beləliklə, hesab edirəm ki, gələcəkdə bu əməkdaşlıq formatı daha da çoxşaxəli ola bilər.

**"Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"**

Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi.

Ona görə bu bəndi xüsusilə qeyd etmək istərdim və əziz naxçıvanlıları da bu hadisə münasibətilə təbrik etmək istərdim. Bildirməliyəm ki, naxçıvanlılar da ikinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi. Bütün bölgələrdə hər bir vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinib. Bütün bölgələrdə biz bunu gördük. Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur. Çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, azərbaycanlılar kimi etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar, sıxışdırırlar, sıxışdırırlar. Amma bizim üstünlüyümüz bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir.

Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur! Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar, dedilər ki, yox, bu, "müstəqil dövlətdir". Bunlar uzun illərdir "müstəqil dövlət" kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəlmə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu nə oldu, Paşinyan? Deyəsən, bir çox illər ərzində dillərdə qalacaq. Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm ki, Azərbaycan xalqı bu sənədə böyük diqqət göstərərək onu dəqiq, böyük diqqətlə oxuyacaq və görəcək ki, biz nə qədər böyük siyasi qələbə qazanmışıq. Bu siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır. Əlbəttə ki, son illər ərzində ölkəmizdə aparılan işlər, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz - bütün bunlar, ordu quruculuğu təbii ki, bu qələbəmizi şərtləndirdi. Mən bu günlərdə bir şeyə də fikir verdim. Hətta fərqli siyasi baxışlara malik olan insanlar, bizim işimizə tənqidi yanaşan insanlar, hətta bir çox hallarda əsassız tənqidlər ifadə edən insanlar bu dövrdə hesab edirəm ki, yüksək şüur nümunəsi göstərdilər. Mən həmişə deyirdim ki, siyasi müstəvidə fərqli baxışlar var, olmalıdır, bu, normaldır. Müxalifət olmalıdır, bu, normaldır. Hər bir demokratik ölkədə olduğu kimi, bizdə də əlbəttə ki, bütün bu azadlıqlar var. Amma bir şey olmamalıdır - dövlətə müxalifətdə olmaq olmaz, dövlətçiliyə müxalifətdə olmaq olmaz. "İqtidara, dövlətə nə qədər pisdir, mənim üçün bir o qədər yaxşıdır" fikri ilə yaşamaq olmaz. Mən deyə bilərəm, bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir. Çünki biz hamımız istəyirik ki, Azərbaycan inkişaf etsin, hamımız istəyirik ki, daha güclü ölkə olsun. Gücümüzü göstərmişik, döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda. Müstəqilliyimizi göstərmişik. İndi gün gələcək müharibə dövründə ictimaiyyətə açıqlana bilinməyən bəzi məqamları yəqin ki, açıqlayacaqlar. Ola bilsin ki, mən də hansısa məsələnin üstündən o pərdəni götürə bilərəm. Onda hər kəs görəcək ki, biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Demək olar ki, gündəlik rejimdə deyirdilər, dayanın, dayanın, dayanın, dayanın. Amma biz qabağa getdik. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq. Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla! Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!

**"Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur!"**

"Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

# Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı



***Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin aşağıdakıları bəyan edirik:***

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

# Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər



***Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər.***

Rusiya Prezidenti Vladimir Putin:

-Axşamınız xeyir, hörmətli İlham Heydər oğlu.

Prezident İlham Əliyev: Axşamınız xeyir, Vladimir Vladimiroviç.

Prezident Vladimir Putin: Bu gün biz sizinlə Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin üçtərəfli bəyanatını imzalayırıq.

Mən çox ümid edirəm ki, bizim birgə bəyanatımızda şərh edilmiş bu qərar nəinki Ermənistan ilə Azərbaycan arasında çoxillik qarşıdurmaya son qoyacaq, bu torpaqlarda qan tökülməsinə son qoyacaq, həm də bizim bugünkü bəyanatda təsbit etdiyimiz razılaşmalara etibarlı nəzarət mexanizmi yaradacaq, ən başlıcası, uzunmüddətli tarixi perspektiv üçün, regionda münasibətlərin, ilk növbədə, həm Azərbaycan, həm də erməni xalqlarının mənafeyi naminə Azərbaycan Respublikası ilə Ermənistan arasında dostluq münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradacaq. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun, hörmətli Vladimir Vladimiroviç. Mən öz tərəfimdən demək istərdim ki, bu gün Ermənistan ilə Azərbaycan arasında çoxillik münaqişənin nizamlanması işinə nöqtə qoyulur, Azərbaycan torpaqlarının işğalına son qoyulur və saatlarla, ümumiyyətlə desək, günlərlə vaxt sərf edib mühüm mövqeləri razılaşdırmaq yolu ilə nizamlamaya nail olduq ki, mənim fikrimcə həm Azərbaycanın, həm də Ermənistanın və region ölkələrinin xalqlarının mənafelərinə cavab verir. Deməliyəm ki, indi bizim gördüyümüz münaqişənin hərbi-siyasi nizamlanması əminəm ki, regionumuzda uzunmüddətli sülhə, həmrəyliyə gətirib çıxaracaq, qarşıdurmaya və qan tökülməsinə son qoyacaq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bizim regionda, Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biridir və bu gün həmin münaqişənin sona yaxınlaşması tarixi hadisədir, ilk növbədə, torpaqları çoxillik işğaldan azad olan Azərbaycan xalqı üçün tarixi hadisədir. Bu, həm də beynəlxalq hüququn norma və prinsiplərinin təntənəsi, BMT Təhlükəsizlik Şurasının əfsuslar olsun ki, uzun müddət kağız üzərində qalmış qətnamələrinin implementasiyasıdır.

Vladimir Vladimiroviç, Sizə həm əvvəlki illərdə və xüsusən münaqişənin qaynar fazası dövründə fəal iştirakınıza görə təşəkkürümü bildirmək istərdim. Bu gün üç ölkə rəhbərinin bu sənədi imzalaması bu münaqişənin nizamlanmasında Rusiya Federasiyasının xüsusi roluna dəlalət edir. Əminəm ki, regionda gələcək fəaliyyətdə, o cümlədən münaqişənin nəticələrinin aradan qaldırılması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün Rusiya Federasiyasının rolu sanballı olacaq. Bu gün Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğana da münaqişənin siyasi yolla nizamlanması işində fəal iştirakına görə təşəkkürümü bildirmək istərdim. Bugünkü bəyanatın bəndlərindən biri Rusiya ilə Türkiyənin birgə sülhməramlı missiyasıdır. Beləliklə, biz regionda təkcə münaqişənin nizamlanması çərçivəsində deyil, həm də gələcək inkişaf üçün qarşılıqlı fəaliyyətin tamamilə yeni formatını yaradırıq. Buna görə də bəndlərdən biri də bütün nəqliyyat kommunikasiyalarının açılmasıdır. Bu, bütün region ölkələrinin xeyrinə olacaq. Ona görə də bu gün mən bu sənədi sevinc hissi ilə, qürur hissi ilə imzalayıram və bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını təbrik etmək istərdim. Sağ olun.

Prezident Vladimir Putin: Mənim fikrimcə, dediyim kimi, bu, həqiqətən həm erməni, həm də Azərbaycan xalqlarının xeyrinə və onların mənafeyi naminədir. Rusiya öz tərəfindən əlindən gələni edəcək ki, üç tərəf arasında danışıqların gedişində əldə edilmiş mövqelər, bu gün bizim imzaladığımız bəyanat hamısı icra olunsun. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun, Vladimir Vladimiroviç. İmzalamaya başlayaq.

Prezident Vladimir Putin: Bəli.

Prezident İlham Əliyev və Prezident Vladimir Putin bəyanatı imzaladılar.

Prezident Vladimir Putin: Sizə təşəkkür edirəm, İlham Heydər oğlu.

Prezident İlham Əliyev: Çox sağ olun, Vladimir Vladimiroviç.

Prezident Vladimir Putin: Bu ərazilərdə yaşayan bütün insanlara, bütün xalqlara ən xoş arzularımı bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizinlə biz xeyirxah iş gördük və bu regiondakı bütün ölkələr arasında münasibətlərin durmadan inkişafı, bu ərazilərdə yaşayan insanların, Azərbaycan və erməni xalqlarının rifahı üçün yaxşı baza şəraiti yaratdıq. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Bir daha sağ olun, Vladimir Vladimiroviç. Sizin şəxsi iştirakınıza görə təşəkkür edirəm və əminəm ki, bu gün baş verənlər Rusiya, Azərbaycan və Ermənistan xalqlarının tarixində çox mühüm tarixi gün kimi qalacaq. Bir daha sağ olun.

Prezident Vladimir Putin: Sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun.

Prezident Vladimir Putin: Xudahafiz.

Prezident İlham Əliyev: Xudahafiz.

# Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar*

***Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib.***

Əvvəlcə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiramlarını bildirdilər. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin abidəsi önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi. Dövlətimizin başçısı və xanımı görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsini də yad etdilər. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə gül dəstələri düzüldü.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanına gəldilər. Dövlətimizin başçısı və birinci xanım Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etdilər, məzarları önünə gül dəstələri düzdülər.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Azərbaycanın



"Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!"





Dövlət Himni səsləndirildi. Dövlətimizin başçısı Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət etdi.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin

xalqa müraciəti

-Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik. 30 ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyirdi, sadəcə olaraq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik. Mən dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdim ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm birinci Qarabağ, həm ikinci Qarabağ - Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm. Yaralı soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!

Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl - 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır.

Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqilik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik? Biz ölkə daxilində uğurlu siyasət apararaq hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik.

Ardı Səh. 7

# Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar*

Əvvəli Səh. 6

Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi.

Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi.

Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan demək olar ki, bütün ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz demək olar ki, təcrid edilmiş vəziyyətdə idik. Ancaq bu gün biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi.

Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi.



> “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”

Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!



Bax, belə ordu yaratmışıq biz! Deyirdik işğalçılara, deyirdik, düz yola gəlin, işğala son qoyun, hələ ki, gec deyil. Ona görə bizim bütün dövrlərdəki siyasətimiz birmənalı olub. Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin - düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik.

Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri.

Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs, hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya, istehkamlar qurulub, mühəndislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq - mənəvi ruh, güc hesabına, birlik hesabına!

Bir daha demək istəyirəm ki, bizim zəfər yürüşümüz davam edir. İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu, bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir.

Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!

Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# Prezidentə yazırlar: Sizin Ali Baş Komandanı olduğunuz Ordumuz xalqımıza heç vaxt unudulmayacaq tarixi anlar və böyük qürur hissi yaşatdı

***Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı tarixi qələbə Azərbaycan vətəndaşlarına, xaricdə yaşayan soydaşlarımıza böyük sevinc və qürur hissi yaşadır. Onlar dövlətimizin başçısına ünvanladıqları məktublarda bu hisslərə görə sonsuz minnətdarlıqlarını ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



Almaniyanın Ştutqart şəhərindən Cəfər Süleymanov yazır: "Hörmətli cənab Prezident, Sizə bu Qələbəni yaşaya bilməyimiz üçün verdiyiniz şücaətli, möhtəşəm iradə və mübarizəyə görə təşəkkür edirəm. Şuşa bizim gözümüz, Şuşa bizim canımızdır. Siz bizi yenidən diriltdiniz, Siz bizə ikinci həyat verdiniz. Sizin rəhbərliyiniz altında gözəl və şərəfli günlər bizi gözləyir. Bir millət olaraq sona qədər Sizin arxanızdayıq. Allah Sizi, Ordumuzu və xalqımızı qorusun! Qarabağ Azərbaycandır!"

Türkiyənin İstanbul şəhərindən Pəri Çəndirova: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizə uğurlu siyasətiniz və Azərbaycan xalqı olaraq bizlərə yaşatdığınız Qələbə sevinclərinə görə təşəkkür edirəm. 8 noyabr tarixində Şuşanın geri alınması xəbəri ilə bizə qürur hissi bəxş etdiniz. Hər zaman böyük bir maraq və həyəcan hissi ilə Sizi izləyirik. Xaricdə yaşayan vətəndaş olaraq, ilk növbədə, öz adımdan və çevrəmdə olan soydaşlarımızın adından Sizə təşəkkür edir və Sizi dəstəkləyirik. Dünya azərbaycanlıları olaraq apardığınız siyasətdə Sizə uğurlar arzu edir, ölkəmiz, xalqımız üçün daha böyük nailiyyətlər əldə etmənizi diləyirik. Qələbə hər zaman bizimlə olsun!".

Litvanın Vilnüs şəhərindən Tamerlan Qarayev: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, icazə verin, Şuşanın azad olunması münasibətilə Sizə minnətdarlıq hisslərimi bildirim, Sizi səmimi qəlbdən təbrik edim və ən xoş arzularımı çatdırım. Şuşanın azad olunması sevincini xalqımıza yaşatdığınıza görə Sizə sonsuz təşəkkürümüzü bildiririk".

Moskvadan Fazil Qurbanov yazır: "Hörmətli cənab Prezident, Rusiyadakı Azərbaycan diasporunun çoxmilyonlu üzvləri və şəxsən öz adımdan Sizi, bütün Azərbaycan xalqını, igid Ordumuzu Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə təbrik edirəm. Biz azərbaycanlılar, hər zaman Vətənimizin - Azərbaycanın yanındayıq və yürütdüyünüz siyasəti tam dəstəklədiyimizi bildiririk. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan xalqının müqəddəs borcudur. Artıq həmin zaman yetişdi - 2020-ci il noyabrın 8-i əbədi olaraq Azərbaycanın tarixinə düşdü. Bu, əzəmətli qələbəmizin günüdür. Adınız böyük Azərbaycan xalqının tarixinə əbədi olaraq qızıl hərflərlə yazılacaq. Yaşasın Azərbaycan Respublikasının xalqı və ordusu! Qarabağ Azərbaycandır!".

Gürcüstanın Marneuli şəhərindən Həcər Yusibova: "Əziz İlham baba, mənim adım Həcərdir. 10 yaşım var. Biz hamımız Sizi çox sevirik. Mən qəhrəman Azərbaycan əsgərləri üçün az da olsa, pul yardımı göndərirəm. Ermənilərə də dediyiniz kimi, qovduq. Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!".

İsveçin Vesteros şəhərindən Əlif Cahangirov: "Salam, cənab Prezident, Sizə İsveçdən yazıram. Biz çox xoşbəxtik, biz çox qürurluyuq, biz çox şanslıyıq. Biz ona görə xoşbəxtik ki, əzəli və müqəddəs torpaqlarımızı, Qarabağımızı düşməndən azad edirik, Şuşamız artıq bizdədir və biz bu tarixi günlərə sevinc göz yaşı tökərək şahidlik edirik. Biz ona görə qürurluyuq ki, bu tarixi anları bizə yaşadan şanlı Ordumuz, cəsur əsgərlərimiz, igidlərimiz var! Biz ona görə şanslıyıq ki, bizim kimliyimizi, qürurumuzu, xalqımızın iradəsini dünyaya sübut edən, başımızı uca, alnımızı açıq edən Sizin kimi rəhbərimiz var. Cənab Prezident, mən ailəmiz adından Sizə təşəkkür etməyi özümə borc bilirəm. Biz həmişə yanınızdayıq və hər zaman əmrinizdəyik. Yaşasın Azərbaycan Ordusu! Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan!".

Aşqabad şəhərindən Zəkiyə Hacızadə yazır: "Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Heydər oğlu, bu məktubu Sizə Türkmənistandan yazıram. Mən Aşqabad şəhərində yaşayıram, 6-cı sinifdə oxuyuram. Adım Zəkiyədir. Biz hər gün televiziya qarşısında əyləşib, Sizin çıxışlarınızı gözləyirik. Siz hər dəfə Azərbaycanın yeni-yeni ərazilərinin işğaldan azad olunduğunu elan edirsiniz. Bu xəbərlər bizi çox sevindirir. Lakin Şuşanın azad edilməsi xəbəri hamımıza xüsusi sevinc bəxş etdi. Biz Sizinlə və igid əsgərlərimizlə qürur duyuruq. Tezliklə bütün torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaq. Yaşasın Azərbaycan!".

Bakı şəhər sakini Rafail Musayev: "Hörmətli cənab Prezident, biz Azərbaycan vətəndaşları olaraq əldə etdiyimiz qələbələrdən fərəh, sevinc və qürur hissləri keçiririk. Onilliklərlə gözlədiyimiz günlər nəhayət ki, gəlib çatdı. Cənab Ali Baş Komandan, inanırıq ki, Sizin rəhbərliyinizlə rəşadətli Azərbaycan Ordusu işğal altında olan bütün torpaqlarımızı tamamilə azad edəcək və üçrəngli bayrağımız həmin torpaqlarımızda dalğalanacaq. Möhtərəm Prezident, hər zaman Sizinləyik. Sizi əmin etmək istəyirik ki, göstəriş verdiyiniz halda hamımız bir nəfər kimi cəbhəyə yollanaraq işğal altındakı digər bölgələrimizi də düşməndən təmizləməyə hər an hazırıq. Allah Sizi və rəşadətli Ordumuzu qorusun! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

Biləsuvardan Elçin Rəhimov: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizin düzgün və uğurlu siyasətiniz nəticəsində Qarabağ uğrunda gedən döyüşlərdə əzəli torpaqlarımızın işğaldan azad olunmasına sevinir və hədsiz qürur hissi keçiririk. Biz məcburi köçkünlər 30 ilə yaxındır ki, gözlədiyimiz bu haqq işinizi dəstəkləyir və Azərbaycan vətəndaşı olaraq hər zaman yanınızda olduğumuzu bildiririk. Xalqımız öz tarixinin şanlı və qürurverici səhifələrindən birini yaşamaqdadır. Hazırda milyonlarla vətəndaşımızın hər bir qarış Vətən torpağı üçün döyüşməyə, lazım gələrsə, canından belə keçməyə hazır olduğunu bilməyinizi istəyirik. Tanrı Sizi, Ordumuzu və bütün Azərbaycan xalqını qorusun!".

Paytaxt sakini Elmira Həsənova: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, ilk növbədə, bizə bu sevinci - Şuşa Qələbəsini yaşatdığınız üçün Sizə və Şanlı Ordumuza öz minnətdarlığımızı bildiririk. Sizin kimi güclü bir Liderimiz olduğu üçün Azərbaycan xalqı çox şanslıdır. Sizinlə və Ordumuzla qürur duyuruq. Son nəfəsimizə qədər Vətənin xidmətində və Sizin yanınızdayıq. Allah Vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət etsin və ön cəbhədə Vətəni müdafiə edən igidlərimizi qorusun! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!".

Gəncə şəhərindən Xalsa Nəsibova: "Hörmətli cənab Prezident, Şuşa ilə bağlı xəbəriniz bir daha yenilməzliyimizin təntənəsi oldu. Siz qürurumuzu, məğrurluğumuzu, vüqarımızı və şərəfimizi özümüzə qaytardınız. Siz qızıl hərflərlə silinməz bir tarix yazdınız. Dövlət Bayrağı Günü ilə əlaqədar Azərbaycan xalqına ən böyük hədiyyə etdiniz. Var olun, cənab Prezident! Allah Sizi və komandanlıq etdiyiniz Ordumuzu qorusun!".

Gəncənin daha bir sakini Elnur İsmayılov: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, zamanı dəyişmək, hadisələrə yön vermək, illərdir ürəyimizdə düyünlənib qalan Qələbə ümidini reallaşdırmaq və insanlara təqdim etmək Sizin Azərbaycan xalqına ən gözəl hədiyyənizdir. Bu hədiyyə mədəniyyət işçiləri üçün "Oskar" mükafatı, tələbələr üçün fərqlənmə diplomu, müəllimlər üçün gələcəyə yatırılan biliyin çiçək açması, elm adamları üçün "Nobel" mükafatı, jurnalistlər üçün alınması mümkün olmayan müsahibədən daha ali, daha dəyərlidir. Şanlı Ordumuz zəhmətinin şirin bəhrəsini görür və öz hədiyyəsini qəbul edir. Qələbə xəbərlərini gözləmək, onu eşitmək, hər gün Bayrağımızla söhbətləşmək o qədər gözəldir ki, cənab Prezident! Allah Sizi var eləsin! Siz bu gün ölkəmiz üçün aşılması çətin olan divarları öz qətiyyətli mövqeyiniz və dəmir iradəniz sayəsində məhv edirsiniz. Bütün bunlar isə xalqın işıqlı gələcəyinə zəmanətdir. Qarabağ Azərbaycandır!".

Mingəçevir şəhərindən Nərmin Qurbanlı: "Əziz İlham baba, mən Sizinlə fəxr edirəm və Sizi Şuşanın alınması münasibətilə təbrik edirəm. Allah Sizi və Müzəffər Ordumuzu qorusun! İlham baba, bütün dualarımız Sizinlədir. Ermənil-

# Prezidentə yazırlar: Sizin Ali Baş Komandanı olduğunuz Ordumuz xalqımıza heç vaxt unudulmayacaq tarixi anlar və böyük qürur hissi yaşatdı

ləri iti qovan kimi qovuruq. Allah Sizi və müzəffər Ordumuzu qorusun. Qarabağ Azərbaycandır!".

Zaqataladan Həsən Ömərov: "Çox hörmətli cənab Prezident, Sizin zəfər yolunda inamlı addımlarınız nəticəsində Azərbaycan Respublikasının incisi olan Şuşa şəhəri düşməndən azad edildi. Bu münasibətlə Sizi təbrik edirik. Bizim dövlətimiz güclü, şanlı Ordumuz yenilməzdir. Yaşasın Azərbaycan!".

Zaqatalanın daha bir sakini Nəbi Kərimov: "Müzəffər Ali Baş Komandan, Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə Sizi təbrik edirəm. Xalqımızı bu gözəl xəbərlə bir daha sevindirdiniz. Yaşasın Azərbaycan və onun Müzəffər Ali Baş Komandanı! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Lənkərandan Əli Tahirov: "Hörmətli cənab Prezident, mən Lənkəran rayonu, Boladi kəndi N.Axundov adına 1nömrəli tam orta məktəbin üçüncü sinfində oxuyuram. Atam zabitdir və hal-hazırda cəbhədə döyüşür, mənfur düşmənə layiqli cavablarını verir. Şuşanın işğaldan azad olması məni də hədsiz dərəcədə sevindirir və bu münasibətlə Sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Şuşanın azad olmasında atam da iştirak etdiyi üçün onunla fəxr edirəm. Sizə və atama inanıram. Sizin çıxışlarınızda dediyiniz bir ifadə çox xoşuma gəlir: "Biz bir dəmir yumruq kimi birləşmişik". Mən də böyüyəndə atam kimi hərbçi olacağam və Sizin kimi Azərbaycanın müstəqilliyi, bütövlüyü uğrunda çalışacağam".

Ağdaşdan Şöhlə Abbasova: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə şəhər və kəndlərimizin gündən-günə abadlaşması, yollarımızın yenidən qurulması, xarici və daxili siyasətiniz, Ordumuzun möhkəmlənməsi üçün gördüyünüz işlər bizi fərəhləndirir, Sizinlə fəxr edirik. Sizin uzaqgörən siyasətinizin nəticəsidir ki, Azərbaycan inkişaf etmiş dövlətlər sırasındadır. Cənab Prezident, Sizin rəhbərliyinizlə ordumuzun qazandığı qələbə 30 ildir ki, xalqımızın ürəyində məskən salmış Qarabağ yarasını sağaltdı, şəhidlərimizin ruhunu şad etdi. Qarabağın ürəyi olan Şuşanın alınması xəbərini verərkən Sizdə olan vüqarı, şücaəti, əzəməti, eləcə də qəlbinizin dərinliyində olan kövrəkliyi hiss etdik. Əziz balam, Sizi, ailənizi, Ordumuzu və xalqımızı Qələbə və 9 noyabr - Bayraq Günü münasibətilə təbrik edir, bağrıma basaraq öpürəm. Atalar demişkən: "Ot kökü üstündə bitər". Müstəqilliyimizin banisi olan ulu öndərimiz Heydər Əliyevə xalqın sevgisini bildirən "Xalq Heydər, Heydər xalqım deyəcək!" şüarı dillər əzbəri olduğu kimi, indi də Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığınız məqsədyönlü mübarizəyə görə "Azərbaycan-İlham, Qarabağ Azərbaycandır!" şüarı dillər əzbəridir. Tanrı Sizi, Ordumuzu və xalqımızı qorusun! Qarabağ Azərbaycandır!".

Füzuli sakini Tapdıq Abdullayev: "Hörmətli Ali Baş Komandan, Siz Şuşanın yenidən bizə qayıtması xəbəri ilə bütün Azərbaycan xalqını sevindirdiniz. Azərbaycan xalqı Sizinlə fəxr edir. Sizin sayənizdə yeni bir tarix yazılır. İnşallah, bütün torpaqlarımız işğaldan azad olunandan sonra Sizin başçılığınızla oralar cənnətə dönəcək. Möhtərəm cənab Prezident, bu qələbələr münasibətilə Sizi təbrik edirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Tovuz sakini Dəmir Qurbanlı: "Möhtərəm cənab Prezident, hörmətli Ali Baş Komandan, əbədiyaşar müdrik rəhbərimiz, bənzərsiz dünyəvi siyasi xadim Heydər Əliyev siyasətinin davamçısı olaraq xalqımızın dəstəyi ilə 2003-cü ildən həyata keçirdiyiniz uğurlu, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətinizin son 17 ildə gərgin və yenilməz fəaliyyətinizin nəticəsidir ki, bu gün dünyanın və regionun lider dövlətinə çevrilmiş Azərbaycan və onun qəhrəman Ordusu Sizin komandanlığınızla doğma Qarabağımızı, Şuşamızı işğaldan azad etməklə təkcə erməni faşizminin planlarını darmadağın etmədi, eyni zamanda, son 200 ildə ermənilərin tarixi himayədarlarının dəstəyi ilə "böyük Ermənistan yaratmaq" planlarını da darmadağın etdi. Bu Qələbə təkcə Ermənistan üzərində Qələbə deyil. Bu Qələbə ermənilərə himayədarlıq edən, onları silahlandıran, ruhlandıran beynəlxalq güc mərkəzləri, erməni lobbiləri üzərində Qələbədir. Cənab Ali Baş Komandan! Arzum budur ki, Sizə Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycanın milli marşalı, dünyanın generalissimusu hərbi rütbəsi verilsin. İşğaldan azad edilən şəhərlərimizdə, rayonlarımızda və Bakı şəhərində generalissimus rütbəsində Sizin heykəliniz ucaldılsın. Eşq olsun Ali Baş Komandanımıza! Eşq olsun qəhrəman Ordumuza! Qarabağ Azərbaycandır!".

Zaqataladan Murtuz Əliyev: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Sizi Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə kollektivimiz adından ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, uzun ömür, işlərinizdə uğurlar arzulayıram. Sizin Ali Baş Komandanı olduğunuz Ordumuz xalqımıza heç vaxt unudulmayacaq tarixi anlar və böyük qürur hissi yaşatdı. Artıq biz qalib xalqıq. Yaşasın şanlı Azərbaycan Ordusu!".

## Türkiyə və Rusiya prezidentlərinin telefon danışığı olub



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. AZƏRTAC xəbər verir ki, telefon danışığında Türkiyənin dövlət başçısı Dağlıq Qarabağ məsələsi ilə bağlı uzunmüddətli sülh yolunda düzgün addım atıldığını ifadə edib.

Prezident Rəcəb Tayyib Ərdoğan hazırkı məqamda ən önəmli məsələnin Ermənistanın atəşkəsə və ortaq bəyanatdakı öhdəliklərə əməl etməsi olduğunu vurğulayıb.

## Mustafa Şentop: Tarixin faciəvi səhifəsi Azərbaycan üçün zəfərlə başa çatdı



Azərbaycanın qanuni haqqı və qalibiyyəti nəhayət ki, düşmən tərəfindən də qəbul edildi. Ermənistan işğal edərək qətliamlar həyata keçirdiyi Qarabağdan çəkilməyə və təslim olmağa məcbur qaldı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop özünün "Twitter" hesabında paylaşıb. Türkiyə parlamentinin sədri yazıb: "Tarixin faciəvi səhifəsi Azərbaycan üçün zəfərlə başa çatdı. Azərbaycan bayrağı və azan Qarabağda yenidən yüksəldi".

## Milli Məclis sədrinin müavini: Ali Baş Komandan Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi



Bu gün Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuz tarix yazdı, uzun illər işğal altında olan ərazilərimiz birdəfəlik işğaldan azad edildi. Müharibənin başladığı ilk günlərdən etibarən bir-bir azad olunan kəndlərimizin, qəsəbələrimizin, şəhər və rayonlarımızın siyahısını gördükcə, hər bir azərbaycanlının ürəyi dağa dönür. Bu qalibiyyət uzun illər aparılan uğurlu siyasətin məntiqi nəticəsidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib. Adil Əliyev deyib ki, istər ordu quruculuğu, istərsə də qurulan diplomatik münasibətlərimiz bu gün öz uğurlu bəhrəsini verdi. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən üzərinə qoyulmuş bütün vəzifələrin öhdəsindən layiqincə gələrək düşməni təslim olmağa məcbur etdi.

Ermənistan aparılan müharibədə bütün silah, texnika və şəxsi heyətini tamamilə itirdi və onlar bu müharibənin ağrı-acılarını uzun illər yaşayacaqlar. Ermənistan yalnız müharibənin davam etdiyi 44 gün ərzində elə məğlub oldu ki, itirdiyi texnikalara görə illərlə ödəniş etməyə məcbur olacaq.

Qalibiyyətin məntiqi davamı olaraq, Ermənistanın baş naziri kapitulyasiya sənədinə imza atmağa məcbur oldu. Kapitulyasiya - müharibədə məğlub tərəfin qalib gələn tərəfin diktə etdiyi bütün şərtləri qeyd-şərtsiz qəbul etməsi və onu icra etməyi üzərinə götürdüyü bir müqavilədir. Təbii ki, də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün şərtləri diktə etdi və Ermənistanın baş naziri bunu qəbul etməyə razı oldu. Dəfələrlə deyilmişdi ki, bu müharibə həm də Ermənistanın baş nazirinin siyasi karyerasının sonu olacaq və Ermənistanda baş verən proseslər artıq bunu deməyə əsas verir. Ermənistanın baş naziri Şuşada yallı oynamaqla, qondarma rejimə inauqurasiya mərasimi keçirməklə Azərbaycan xalqının və onun liderinin səbrini sınağa çəkdi.

Ölkə başçısı dəfələrlə xəbərdarlıq etdi, hətta BMT-nin iclasında bildirdi ki, əgər Ermənistanı dayandırmasanız, biz onları dayandıracağıq. Lakin dünya dövlətləri sanki Ermənistanın apardığı təxribat siyasətini görmür, işğalçının bu siyasətini dəstəkləyirdilər. Nəticədə işğalçı məğlub oldu, işğal etdiyi əraziləri birdəfəlik tərk etməklə yanaşı, məğlub tərəf olaraq Azərbaycanın bütün diktəsinə qeyd-şərtsiz əməl edəcəyini öz öhdəsinə götürdü. Habelə, Ermənistanın yeganə itkisi torpaq itkisi olmadı, həm də siyasi və iqtisadi çöküşlərini yaşayırlar, etdikləri səhvlər nə qədər böyük idisə, yaşadıqları məğlubiyyət də o qədər ağrılı oldu.

Biz isə Ali Baş Komandanın rəhbərliyi ilə 30 ilə yaxın işğal altında olan ərazilərimizi işğaldan azad edərək, öz əbədi və əzəli torpaqlarımıza geri qayıtdıq, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü təmin etdik.

Şuşa şəhəri azad edildikdən sonra isə artıq Ermənistanın məğlub olduğu hamı üçün açıq-aşkar idi. Tarixi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi hər birimiz üçün böyük bir bayramdır. Dilindən, dinindən, siyasi fikirlərindən asılı olmayaraq, hər bir Azərbaycanlının cənab Prezidentin ətrafında sıx birləşərək, həmrəylik göstərməsi isə Azərbaycan xalqının və onun rəhbərinin qüdrətindən xəbər verir. Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların Ali Baş Komandana göstərdiyi inam və etimad öz uğurlu bəhrəsini verdi.

Tarix bir daha göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır, onun güclü iradəsi var. Xalqımız mərhəmətli olduğu qədər də yeri gəldikdə düşmənə zərbə vuracaq dəmir yumruğu var. Azərbaycan xalqı bu gün xoşbəxtdir, onun Prezidenti dünyanın ən güclü lideridir. Onun Prezidentinin istər diplomatiyada, istər xarici televiziyalara verdiyi müsahibələrdə keçdiyi master-klaslarda, istərsə də rəhbərlik etdiyi ordunun döyüş meydanında göstərdiyi şücaətlərdə misli-bərabəri yoxdur. Cənab Prezident İlham Əliyev "Qarabağ Azərbaycandır!" dedi və Qarabağdakı düşmən işğalına birdəfəlik son qoydu.

# Mehriban Əliyeva: Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu!



**_Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın paylaşımında deyilir:_**

"Əziz həmvətənlər!

Bu gün böyük gündür - Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu! Həqiqətən əlamətdar olan bu hadisə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm!

Ermənistan özünün tam və qeyd-şərtsiz kapitulyasiyasını etiraf etdi! Biz öz nəcib xilaskar missiyamızı şərəflə yerinə yetirdik! Biz öz Vətənimizi qoruduq, əzəli Azərbaycan torpaqlarını işğaldan azad etdik, Azərbaycanın səbirlə gözlədiyi Qələbəni qazandıq! Biz uzun illər boyu həqiqətin və tarixi ədalətin təntənəsini gözləyirdik. Münaqişənin dinc yolla nizamlanmasına dair danışıqlar prosesində 30 ilə yaxın iştirak etməyimiz bizim sülh tərəfdarı olmağımızın əyani göstəricisidir. Ermənistan 27 il ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərib. Ermənistan tərəfindən törədilən hərbi təxribatlar bitib-tükənmirdi. Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o, özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi!

2020-ci il sentyabrın 27-dən davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan Ordusu təqribən 300 yaşayış məntəqəsini, o cümlədən 5 şəhəri və 4 qəsəbəni, çoxsaylı strateji yüksəklikləri azad etdi. Azərbaycanın mədəniyyət incisi - Şuşa şəhəri azad ediləndən cəmi bir neçə saat sonra bizim döyüşçülərimiz 72 yaşayış məntəqəsini və 9 strateji yüksəkliyi öz nəzarəti altına almağa nail oldu. Bu, şübhəsiz, Ermənistanın hərbi və siyasi rəhbərini çıxılmaz vəziyyətə saldı. Bizim ordumuz öz müqəddəs dəyərləri - Vətənimiz, ortaq evimiz uğrunda döyüşürdü və bu müqəddəs mübarizədə dözüb dayandı və qalib gəldi!

Bu anlarda bütün dünya azərbaycanlıları sevinc və qürur hissləri keçirir. Bizim Prezidentimizə görə, igid əsgərlərimizə və zabitlərimizə görə, Azərbaycan xalqının vətənpərvərliyinə, sıx birliyinə və həmrəyliyinə görə qürur keçirir!

Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Onun rəhbərliyi ilə müasir, güclü Azərbaycan Ordusu yaradılıb! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu. Prezidentimizin güc mənbəyi olan Azərbaycan xalqının hörməti, sevgisi, etimadı, inamı və dəstəyi ona Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini başa çatdırmaqda kömək etdi. Onun başçılığı ilə biz xalqımızın özünəinamını qaytaran Qələbəni qazandıq! Bu Qələbənin möhtəşəmliyi Azərbaycan dövlətinin tarixində əbədi qalacaq!

Əziz qardaşlar və bacılar!

Torpaqlarımızın xaincəsinə işğalı illərində olduğu kimi, budəfəki döyüşlər dövründə də faciələr və itkilər oldu. Hərbi əməliyyatlar zonasından uzaqda vəhşicəsinə hücumlar nəticəsində şəhərlərimizin və kəndlərimizin dinc sakinləri həlak oldu. Uşaqlar, qadınlar və ahıl insanlar həlak oldu. Amma bu, Azərbaycanın əzmini sındırmadı! Mən həlak olanların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm! Onların qanı yerdə qalmadı! Azərbaycan Ordusu, Azərbaycan dövləti bütün həmvətənlərimizin axıdılmış qanına görə qisas aldı!

Vətənimizi müdafiə edən, onu dirçəldən nəslin işıqlı xatirəsi, bu nəslə hörmət və ona görə səmimi qürur hissi hər bir azərbaycanlının qəlbində həmişəlik qalacaq! Bizim əsgər və zabitlərimiz canlarını belə əsirgəmədən döyüşüblər. Onlar nəciblik və həqiqi vətənpərvərlik nümunəsi göstəriblər. Bu gün onların hamısını Vətən naminə, onun qüdrəti naminə göstərdikləri igidliklər birləşdirir! Biz onların rəşadəti, iradəsi və ruh yüksəkliyi qarşısında, öz mətanəti ilə işğalçını sarsıdan, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən hər kəsin qarşısında baş əyirik! Adları Azərbaycan dövlətinin tarixinə əbədi olaraq yazılan bu cür igid övladlar böyüdüb tərbiyə etmiş valideynlərin qarşısında baş əyirik! Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Bu müharibə bizə əsrlərboyu bildiyimiz bir həqiqəti - dost dar gündə tanınar həqiqətini bir daha sübut etdi. Dünyadakı bütün dostlarımıza minnətdaram! Sağ olsunlar ki, bizim dərdimizə şərik oldular, Azərbaycan xalqını dəstəkləyən prinsipial və ədalətli mövqelərini açıq bildirdilər. Qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana xüsusi təşəkkürümü bildirirəm. Onların həmrəyliyi və dəstəyi hər bir azərbaycanlıda qürur hissi oyadır!

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm. Onların yüksək peşəkarlığı, obyektivliyi, qərəzsizliyi, operativliyi və məsuliyyəti sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün oldu. Öz vətənlərinin hüdudlarından kənarda Azərbaycanın mövqeyini müdafiə edən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən soydaşlarımız sağ olsunlar! Arxa cəbhədə bir yumruq kimi birləşərək Azərbaycan dövlətinin qüdrətini və bizim həmrəyliyimizi bütün dünyaya nümayiş etdirmiş bütün Azərbaycan xalqına minnətdaram!

Əziz həmvətənlər!

Sizin hamınızı Böyük Qələbə Günü münasibətilə təbrik edirəm! Böyük zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN".



## Azərbaycan və Rusiya Prezidentləri arasında telefon danışığı olub

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib. Azərbaycan Prezidenti Rusiya Hərbi Hava Qüvvələrinin helikopterinin Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan sahəsində vurulması ilə bağlı faciə ilə əlaqədar başsağlığı verib.

Prezident İlham Əliyev bu faciəli təsadüfə görə üzrxahlıq edərək bildirib ki, günün qaranlıq vaxtında həmin helikopter Ermənistan hərbi hava qüvvələrinin helikopteri hesab edilib.

Dövlətimizin başçısı həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verilməsini xahiş edib, xəsarət almış pilotun tezliklə sağalmasını arzu edib. Prezident İlham Əliyev Azərbaycan tərəfinin həlak olmuş və xəsarət almış pilotların ailələrinə kompensasiya ödəməyə hazır olduğunu bildirib.

Prezident İlham Əliyev Prezident Vladimir Putinə bildirib ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bu fakt üzrə cinayət işi qaldırılıb, təhqiqat aparılır. Təqsirkarlar cəzalandırılacaq və bu barədə Rusiya tərəfi məlumatlandırılacaq.

Prezident Vladimir Putin telefon zənginə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib, belə insidentlərin yolverilməz olduğunu qeyd edib.

## Sahibə Qafarova: Bu gün Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və biz tarixi torpaqlarımıza, doğma Qarabağımıza qayıdırıq



Milli Məclisin sədri Sahibə Qafarova Qarabağ müharibəsində Azərbaycanın qazandığı tarixi qələbə münasibətilə xalqımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir: "Hörmətli həmvətənlər! Əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağımızı bizə geri qaytaran bu şanlı qələbəmiz münasibətilə hər birinizi səmimi qəlbdən təbrik edirəm!

Bu möhtəşəm və tarixi günlər hər birimizin həyatında ən xoşbəxt, ən yaddaqalan günlər olacaqdır. Bu gün Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və biz tarixi torpaqlarımıza, doğma Qarabağımıza qayıdırıq. Bu zəfərin memarı, bu möhtəşəm nailiyyətləri qızıl hərflərlə Azərbaycan tarixinə yazan Ali Baş Komandanımız İlham Əliyev və Şanlı Ordumuzdur!

Bu zəfər Azərbaycan xalqının, onun Liderinin və Ordusunun gücünü bütün dünyaya göstərdi. Eşq olsun Ali Baş Komandan İlham Əliyevə!

Eşq olsun qüdrətli Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır!

Yaşasın Azərbaycan!".

## Fuat Oktay: Sevinciniz, sevincimiz daimi olsun, can Azərbaycan!



Bir ağızdan "Qarabağ Azərbaycandır!" deyə qışqırırdıq. Artıq Qarabağ Azərbaycanındır. AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyənin vitse-prezidenti Fuat Oktayın rəsmi "Twitter" hesabında Azərbaycanın tarixi qələbəsi münasibətilə verdiyi açıqlamasında yer alıb. Fuat Oktay, həmçinin yazıb: "Eşq olsun, sevinciniz, sevincimiz daimi olsun, can Azərbaycan!".



## Azərbaycan və Türkiyə dost və qardaş ölkələr olaraq bundan sonra da bir-birinin yanında olacaqlar!

*Azərbaycan və Türkiyə Prezidentləri arasında telefon danışığı olub*

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.

Dövlət başçıları Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik ediblər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığını bildirib.

Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin ölkəsinin dəstəyinə verdiyi yüksək qiymətə görə təşəkkür edib. Azərbaycan və Türkiyə prezidentləri dost və qardaş ölkələrimiz və xalqlarımızın bundan sonra da bir-birinin yanında olacağını bildiriblər.

Telefon söhbəti zamanı atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya sülhməramlı mərkəzinin yaradılması yüksək qiymətləndirilib, bu mərkəzin regionda uzunmüddətli sülhün təmin edilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

## Ukraynalı deputat: Azərbaycan Ordusu erməni tərəfi sarsıdıcı məğlubiyyətə uğratdı



Azərbaycan Ordusu erməni tərəfi sarsıdıcı məğlubiyyətə uğratdı. İşğaldan azad edilmiş ərazilərin sayı buna sübutdur. Ermənistan həm şəxsi heyət, həm də texnika baxımından böyük itkilərə məruz qalıb. Şuşa şəhərinin işğaldan azad edilməsi bir daha göstərdi ki, erməni tərəfin bundan sonra müqavimət göstərməsi hərbi-siyasi vəziyyəti onun üçün daha da gərginləşdirəcək. Mən Ermənistanın təslim olacağını gözləyirdim.

Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan dostluq qrupunun həmsədri Valeri Kolyux bu fikirləri AZƏRTAC-a eksklüziv müsahibəsində söyləyib.

Onun sözlərinə görə, hazırda Ermənistan sosial, iqtisadi və siyasi böhran təhlükəsi qarşısındadır. Koronavirus pandemiyası Ermənistan iqtisadiyyatına ciddi təsir göstərib, döyüş əməliyyatları isə bu iqtisadiyyatın normal fəaliyyətini təhlükə altına alıb. Aşkar görünür ki, erməni cəmiyyətinin bir hissəsi müharibədən yorulub və onlardan ötrü mənasız olan qarşıdurmada qan tökməyə hazır deyil.

Valeri Kolyux sonda deyib: "Ukraynada ümid edirlər ki, Azərbaycan öz ərazi bütövlüyünü tamamilə bərpa edəcək, regionda çoxdan gözlənilən sülh və əmin-amanlıq bərqərar olacaq".

## Konstantin Kosaçov: Ermənistan üçtərəfli sazişə görə öz üzərinə düşən öhdəlikləri yerinə yetirməyə hazır olduğunu göstərməlidir



Dağlıq Qarabağda münaqişə zonasında Rusiyanın sülhməramlı missiyası o zaman səmərəli olacaq ki, Ermənistan da Azərbaycan kimi öz üzərinə düşən vəzifəni yerinə yetirməyə hazırlığını nümayiş etdirsin. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə RF Federasiya Şurasının beynəlxalq məsələlər üzrə komitəsinin sədri Konstantin Kosaçov bəyan edib.

K.Kosaçov deyib: "Azərbaycan dayanmağa və rusiyalı sülhməramlıların xidmətindən istifadə etməyə razılıq verib. Ermənistan, hər halda Ermənistanın birinci şəxsləri, buna razılıq veriblər. Bu günə olan vəziyyətə görə, biz hələ əmin olmalıyıq ki, bu razılıq heç olmasa nisbi ictimai razılıqla, ictimai konsensusla müşayiət olunur. Ermənistan üçtərəfli sazişə görə öz üzərinə düşən öhdəlikləri yerinə yetirməyə hazır olduğunu göstərməlidir. Yalnız o zaman rusiyalı sülhməramlıların regionda mövcudluğu səmərəli nəticə verər".

## "Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir"

*Prezident İlham Əliyev Türkiyənin xarici işlər, milli müdafiə nazirlərini və Milli Kəşfiyyat İdarəsinin rəisini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu, milli müdafiə naziri Hulusi Akarı və Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidanı qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Əziz dostlar, hörmətli qonaqlar, Qələbədən sonra ilk görüşümdür, təbii ki, qardaşlarımla görüşdür. Bu gün səhər əziz Qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğanla telefonla danışdıq, söhbət etdik, bu böyük qələbə münasibətilə bir-birimizi təbrik etdik. Eyni zamanda, gələcək işlər haqqında fikir mübadiləsi aparıldı. Əziz Qardaşıma və bütün Türkiyə xalqına bu dəstəyə, həmrəyliyə görə öz adımdan, bütün Azərbaycan xalqı adından bir daha dərin təşəkkürümü



bildirdim. Bütün bu 44 gün ərzində qardaş Türkiyənin dəstəyini biz hər an hiss edirdik, bütün Azərbaycan xalqı hiss edirdi. Dünən artıq bəyanatın imzalanmasından sonra Türkiyə televiziyalarında müşahidə olunan mənzərə çox ürəkaçan idi. Yəni, bizim türk qardaşlarımız bu Qələbəyə öz qələbələri kimi sevinirdilər. Onsuz da bu, belədir. Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə bəlkə də ən yüksək səviyyədədir. Bütün bu günlər ərzində Türkiyənin vəzifəli şəxsləri, Məclis üzvləri, nazirlər, ictimai fəallar, mətbuat, geniş ictimaiyyət, bizim bütün qardaşlarımız bizə çox böyük dəstək oldular. Bu, bizə əlavə güc verdi, ruh yüksəkliyimizi daha da artırdı. Biz bu gün, əlbəttə, çox xoşbəxtik ki, nəhayət 30 ildən sonra öz dədə-baba torpaqlarımızı işğaldan azad etdik.

Bu gün əziz Qardaşımla söhbət əsnasında, eyni zamanda, Türkiyə-Rusiya birgə atəşkəsə nəzarət mərkəzinin fəaliyyəti ilə də bağlı fikir mübadiləsi apardıq. Hesab edirəm ki, bu da çox önəmli addımdır. Bu, bölgədə iş birliyinin yeni formatıdır. Biz bunu hər zaman istəyirdik ki, Türkiyə və Rusiya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində bərabər səviyyədə rol alsınlar və bu gün biz buna nail olduq. Bu mərkəzin gələcək fəaliyyəti ilə əlaqədar bu gün sizinlə də danışacağıq və rusiyalı həmkarlarımızla danışacağıq ki, qısa müddət ərzində bu mərkəz yaradılsın. Çünki erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasının artıq cədvəli var. Bu ayın sonuna qədər onlar bütün torpaqlardan, hələ də işğal altında olan torpaqlardan çəkilməlidirlər. Beləliklə, bu mərkəzin qısa bir zaman içərisində yaradılmasında çox böyük fayda var. Bir daha xoş gəlmisiniz, öz doğma evinizə xoş gəlmisiniz.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu:

-Çox təşəkkür edirik, cənab Prezidentim. Biz də öz doğma evimizdə bir daha olmaqdan çox məmnunuq. Bizi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirik.

Bu gün Qardaşınız, Prezidentimiz Rəcəb Tayyib Ərdoğanla telefon danışığınız olub. Amma təyyarəyə minməzdən əvvəl mənə yenidən zəng etdi, Sizə salamlarını və təbriklərini çatdırmağımı bir daha söylədi.

Biz də bir daha Sizi qələbəniz, - Sizin qələbəniz, bizim qələbəmizdir, - bu böyük zəfər münasibətilə təbrik edirik. Ali Baş Komandan olaraq, Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusu nə edə bildiyini dosta, düşmənə nümayiş etdirdi, eyni zamanda, türkün gücünü də göstərdi.

Bu prosesdə Sizin rəhbərliyinizlə qardaş Azərbaycan həm döyüş meydanında, həm də masada mövcudluğunu da göstərdi. Döyüş meydanında qələbələrinizə baxmayaraq, sülh yolu ilə, atəşkəs yolu ilə də bu münaqişənin həlli üçün böyük bir liderlik göstərdiniz. Amma təəssüf ki, Ermənistan bu imkanlardan istifadə etmədi. Ümid edirəm ki, bu dəfə bundan dərs alarlar. Döyüş meydanındakı qələbələrlə yanaşı, Azərbaycanın digər torpaqları qısamüddətli bir təqvimlə yenidən, inşallah, Can Azərbaycana qaytarılacaq.

Biz Sizin həm döyüş meydanındakı, həm də diplomatik müstəvidəki uğurlarınızdan qürur duyuruq. Türkiyə olaraq hər zaman dedik ki, başda hörmətli Prezidentimiz olmaqla, həm döyüş meydanında, həm də masada Can Azərbaycanın yanındayıq.

Bundan sonrakı prosesdə Sizin də dediyiniz kimi, birgə nəzarət mərkəzinin yaradılması daxil olmaqla, atacağımız addımları da birlikdə müzakirə edəcəyik, dəyərləndirəcəyik.

Sizin göstəriş və tapşırıqlarınıza uyğun olaraq biz də həmkarlarımızla birlikdə lazımı işləri görəcəyik. Bu məqsədlə bu gün qəbulunuza, tapşırıqlarınızı almağa gəldik. Bir daha təbrik edirik. Bu gün səhər televizoru açdıq, Azərbaycanda insanlar küçələrdə idi, Türkiyədə də xalqımız eyni sevinci yaşadı. Buna görə də təşəkkür edirik.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.



***Azərbaycan öz tarixinin ən möhtəşəm günlərindən birini yaşayır. Gecə yarısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin şanlı qələbə müjdəsindən sonra paytaxtımızın küçə və meydanlarına, parklarına axışan böyüklü-kiçikli yüz minlərlə insanın bayram şənliyi on saatdan çoxdur davam edir. Bakı sakinləri tarixi Qələbədən doğan sevinc və qürur hisslərini bir-biri ilə paylaşır, bu zəfəri xalqına bəxş edən dövlətimizin başçısına minnətdarlıq duyğularını dilə gətirirlər. Hər yerdə Vətəni, Qarabağı, igid Azərbaycan əsgərini tərənnüm edən mahnılar səslənir.***

# Azərbaycan

## xalqı öz tarixinin ən möhtəşəm zəfərini bayram edir!

Gecə saatlarından başlayaraq qəhrəman Vətən övladlarımızın uyuduğu Şəhidlər xiyabanında da böyük izdiham yaşanmaqdadır. Şəhid məzarlarına ziyarət etməyə gələn insanların ardı-arası kəsilmir.

Bu zəfər günündə Azərbaycan və Türkiyə bayraqları yanaşı dalğalanır. Bu təsirli, qürur doğuran mənzərələr "bir millət, iki dövlət" olan Azərbaycan-Türkiyə qardaşlığının əbədiyyətə qədər davam edəcəyindən soraq verir.

*Ardı Səh. 13*


























Əvvəli Səh. 12

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətindən sonra Qarabağ savaşında şanlı qələbəmizi qeyd etmək üçün Bakının küçə və meydanlarına çıxan paytaxt sakinlərinin bayram şənliyi dünən gecə saatlarınadək davam edib. İnsanlar bütün gün boyu tarixi Qələbədən doğan sevinc və qürur hisslərini paylaşıb, xalqımıza bu möhtəşəm zəfəri yaşadan dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

Vətəni, Qarabağı, qəhrəman Azərbaycan əsgərini tərənnüm edən mahnılar, şux rəqslər bayram şənliklərinə xüsusi ovqat qatıb. 30 il davam edən işğala son qoyuldu. Müraciətdən sonra insanlar bu tarixi zəfərin sevincini paylaşmaq üçün paytaxtın küçələrinə axışdılar.



# Azərbaycan

## xalqı öz tarixinin ən möhtəşəm zəfərini bayram edir!


























Ümumxalq şənliyi böyük coşqu ilə davam edib. Əllərində ay-ulduzlu bayraqlar dalğalandıran, Müzəffər Ali Baş Komandanımızın portretlərini tutan yüz minlərlə Bakı sakini Rəşadətli Ordumuza, Qalib Əsgərimizə minnətdarlıqlarını ifadə ediblər.

# “Qələbəmizin həlledici amili ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır”

## *YAP İcra Katibliyində “Vətən müharibəsi-Böyük qələbə” mövzusunda videokonfrans keçirilib*

***Noyabrın 10-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Vətən müharibəsində qazanılmış qələbə münasibətilə videokonfrans keçirilib.***




Videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov möhtəşəm qələbə münasibətilə təbriklərini çatdıraraq bildirib ki, Azərbaycan Ordusunun əldə etdiyi böyük qələbə tariximizdə xüsusi əhəmiyyət kəsb edir. Bu qələbə tariximizə qızıl hərflərlə yazılacaq. “Xalqımız 30 ildir bu qələbəni gözləyib, amma təkcə gözləməyib, ona hazırlaşıb”-deyən, Əli Əhmədovun sözlərinə görə, bunun nəticəsində də Azərbaycan möhtəşəm, əzəmətli qələbəsini təmin edib. Onun fikrincə, bu qələbənin tarixdə mühüm yeri təkcə 30 il sonra torpaqlarımızın işğaldan azad edilməsi deyil, həm də milli qürurumuzun qaytarılmasıdır: “İndi hər bir vətəndaşımız azərbaycanlı olmaq qürurunu yaşayır. Bu tarixi qələbəni müəyyənləşdirən bir cəhət də onun döyüş meydanında qan bahasına, can bahasına əldə olunmasıdır. Heç şübhəsiz, Azərbaycan bu qələbəni əldə etməklə öz tarixinin qızıl səhifəsini, şərəf və ləyaqət səhifəsini yazıb”.




Möhtəşəm qələbənin qazanılmasının səbəblərindən danışan YAP Sədrinin müavini qeyd edib ki, bu amillərdən biri xalqımızın dəyanətidir: “30 il ərzində xalqımız işğal faktı ilə razılaşmadı, güc topladı və öz torpaqlarınını işğaldan azad etdi. İkincisi, möhtəşəm qələbənin əldə olunmasında güclü Azərbaycan dövləti rol oynadı. Hər bir dövlətin əsas missiyalarından biri öz torpaqlarının təhlükəsizliyi təmin etməkdir. Və Azərbaycan dövləti də bunu etdi. Digər tərəfdən, qələbənin təmin olunmasının mühüm səbəblərindən biri də müzəffər Azərbaycan Ordusu, cəngavər hərbçilərimizdir. Güclü ordumuz olmasaydı, öz torpaqlarımızı azad edə bilməzdik. 30 il əvvəl Azərbaycan zəif olduğuna görə torpaqlarımız işğal olunmuşdusa, bu gün dövlətimizin qüdrəti, ordumuzun döyüş qabiliyyəti sayəsində torpaqlarımız azad olundu. Qələbəmizin həlledici amili ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlət, xalq və ordu o zaman güclü olur ki, ona güclü lider rəhbərlik edir. Bu mənada, bu gün Azərbaycan xalqının böyük coşğu ilə qeyd etdiyi qələbəmizin baş qəhrəmanı Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevdir. Biz hərb və diplomatiya cəbhəsində cənab İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini gördük. Xalqımızın, dövlətimizin birliyi, dövlətimizin başçısına inam bizim qələbəmiz ilə nəticələndi. Məhz bunun nəticəsidir ki, Ermənistan tərəfindən bir neçə il ərzində işğal olunmuş və 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində işğaldan azad etdik”. Baş nazirin müavini möhtəşəm qələbənin qazanılmasında qardaş Türkiyənin siyasi və mənəvi dəstəyini də xüsusi vurğulayıb.

Əli Əhmədov söyləyib ki, bu qələbə Azərbaycana sülh gətirməklə yanaşı, Cənubi Qafqazın sülh və firəvanlığı üçün də etibarlı zəmin yaradır: “Qürur duyuram ki, təmsil etdiyim Yeni Azərbaycan Partiyasının rəhbəri İlham Əliyevin möhtəşəm rəhbərliyi, tarixi sərkərdə missiyası nəticəsində xalqımız öz tarixinin ən şərəfli anlarını yaşayır. Tarix öz şərəf səhifəsində cənab İlham Əliyevin adını əbədi həkk edəcək. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev vaxtilə bildirmişdi ki, mənim başa çatdıra bilmədiyim işləri İlham Əliyev sona çatdıracaq. Müdrikcəsinə deyilmiş bu fikirlər həyata keçir. Hesab edirəm ki, bu şanlı qələbədən sonra Azərbaycan tarixinin yeni mərhələsi başlayacaq, Azərbaycan xalqı dünyada özünün dəyanəti, əyilməzliyi və ordusunun gücü ilə də ilə tanınacaq”.

Daha sonra videokonfransda çıxış edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Ziyafət Əsgərov bu gün xalqımız qürurlu anlarını yaşayır. Çünki 30 il işğal altında olan torpaqlarımız azad olunub. Onun sözlərinə görə, ötən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişənin siyasi həlli ilə bağlı heç bir addım atmayıb, Ermənistanı işğalçı kimi tanımayıb. Üstəlik, Ermənistan hakimiyyətinin təxribatları vəziyyəti daha da gərginləşdirdi. Buna görə də, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi rəşadətli ordumuz torpaqlarımızı işğaldan azad etməyə başladı.

Tədbirdə həmçinin, Milli Məclisin deputatları- Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa və “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin sədri Tural Gəncəliyev çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Qarabağ probleminin həllində qazanılmış qələbə Ermənistanın işğalçılıq siyasətinə son qoyur, erməni tərəfi artıq məğlubiyyətini etiraf edir. Qeyd olunub ki, bu qələbə Prezidentimizin, xalqımızın və ordumuzun birliyinin, milli həmrəyliyimizin parlaq göstəricisidir.

## Rasim Quliyev: “Biz hərbi gücümüzü nümayiş etdirdik və hərb meydanında qalib gəldik”



“Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə bugünkü müasir dünyaya həm yüksək texnologiyalar müharibəsinin nümunəsini, həm də Azərbaycan əsgərinin, vətəndaşının cəsarətini, şüaciətini, milli ruhunu göstərdi. Bütün dünya mətbuatı də birmənalı olaraq qeyd etdi ki, Azərbaycan əsgəri öz şəhidini çiyninə alaraq, yaralı qardaşını qollarının arasına alaraq cəngavər kimi Şuşanın alınmaz qalası uğrunda döyüşə atılırdı. Bu özü müasir dünyanın döyüş salnaməsində, hərb tarixində bir yenilik idi. Hətta deyərdim ki, bu müasir dünyanın son 50 ildən çox bir dövründə ən qanlı müharibəsi idi. Bu müharibə Azərbaycan Ordusunun, Ali Baş Komandanın zəfəri ilə başa çatdı. Təbii ki, bu bütün Azərbaycan xalqının qələbəsidir, sevincidir. Ötən gün gecədən başlayaraq Azərbaycanın hər bir guşəsində və dünyanın azərbaycanlılar yaşayan bütün bölgələrində zəfər bayramı qeyd olunur. Qardaş Türkiyədə, eləcə də digər başqa-başqa ölkələrdə azərbaycanlılar, türklər həmin qələbəni böyük coşqu, sevinclə qeyd edirlər”. Bu fikirləri SİA-ya açıqlamasında “Resurs” Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.

Mərkəz rəhbərinin sözlərinə görə, Ali Baş Komandan, Prezident İlham Əliyev dəfələrlə müraciətlərində demişdi ki, əgər Ermənistan tərəfi bizim tələblərimizi yerinə yetirsə, biz hərbi fazadan diplomatik siyasi fazaya keçməyə razıyıq: “Qarabağın döyünən ürəyi Şuşa şəhəri Azərbaycanın qəhrəman ordusu tərəfindən işğaldan azad olunandan sonra düşmən əlini yerə qoydu və gördü ki, yaxın vaxtlarda onların ordusu son nəfərinə kimi mühasirədə məhv olacaq. Ona görə də işğalçı tərəf öz ordusunu ərazilərimizdən geri çıxarmaq üçün bəyanat verməyə məcbur oldu. Rusiya prezidenti Vladimir Putin və Ermənistan baş naziri Nikol Paşinyan bizim Ali Baş Komandan, cənab Prezidentin tələbləri əsasında hazırlanmış bəyanatı öz imzaları ilə təsdiq etdilər. Bəyanatın hər bir bəndi əsas tezislər və müddəalardır. Yeni həmin bəndlərin hamısı detallaşdırılacaq.

Cənab Prezidentimizin də müraciətində dediyi kimi Dağlıq Qarabağa heç bir statusdan söhbət gedə bilməz. İşğala qədərki dövrdə yaşayan ermənilər öz ərazilərində bizim vətəndaş kimi qayıdıb yaşaya bilərlər. Amma Ermənistan ordusu Azərbaycan sərhədləri daxilində qala bilməz. Ermənistan ordusu bizim ərazilərimizi tərk edib çıxdıqca dəhliz vasitəsilə gələcəkdə ölkəmizdə yaşayacaq ermənilərin Ermənistanda olan qohum-əqrəbalarının yanına gedib-gəlmələrinin təhlükəsizliyinə təminat vermək üçün sülhyaratma kontingenti hələlik 5 il müddətinə fəaliyyət göstərəcək. Bu ilin dekabrın 1-nə qədər Ermənistan silahlı qüvvələri işğal etdiyi ərazilərin hamısını birmənalı surətdə boşaltmalıdır. Daha sonra bəyanatda olan müddəalar mərhələli şəkildə icra olunacaq. O cümlədən Azərbaycanın bir əsrdən artıq ayrı düşmüş Naxçıvanla quru əlaqələri bərpa olunacaq. Bu bizim xalqımızın və Türk dünyasının çox böyük zəferidir. Eləcə də bu Türkiyə ilə Orta Asiyanı birləşdirən bir magistralın yaranmasıdır.

Əminəm ki, cənab Prezidentin öz müraciətində dediyi kimi Ermənistan baş nazirinin təslim aktını bəyan etməsi və həmin bəyannaməyə imza atması kapitulyasiyadır. Bu məsələnin hüquqi tərəfi ondan ibarətdir ki, BMT-nin və digər beynəlxalq təşkilatların hansı ki boşaltmalı olduğu Azərbaycan ərazisinin indi boşaltmağa məcbur olmasını təsdiq edir. Dolayısı ilə o işğal faktını təsdiq edir. Əgər o işğal faktını təsdiq edirsə, deməli, növbəti mərhələdə Ermənistan öz hərbi cinayətlərinə görə hərbi məhkəmə qarşısında cavab verməlidir və beynəlxalq məhkəmədə Azərbaycana vurduğu iqtisadi zərərin təzminatını ödəməlidir. Hüquqi cəhətdən bu bizə çox böyük üstünlük verir. Sözsüz ki, bu bizim qələbimizi rəsmiləşdirir. Bizim şəhidlərimiz, qazilərimiz, vətəndaşlarımız Azərbaycan dövləti üçün nə qədər qiymətlidirsə hər bir əsgərimizin həyatı bizim üçün o qədər qiymətlidir. Bunu dəfələrlə Ali Baş Komandan, cənab İlham Əliyev öz müraciətlərində, müsahibələrində bildirib. Biz hərbi gücümüzü nümayiş etdirdik və hərb meydanında qalib gəldik. İndi isə o bəyanatın imzalanması ilə diplomatiya meydanında qalib gəlmişik. Mən qazanılan Qələbə bayramı münasibətilə hamını ürəkdən təbrik edirəm”.

***Ceyhun Rasimoğlu***

## Gürcü saytı: “Prezident İlham Əliyev: nə oldu Paşinyan? Statusun nə oldu?”

Gürcüstanın böyük oxucu kütləsinə malik “interpressnews.ge” informasiya agentliyi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti zamanı söylədiyi fikirlərə geniş yer ayırıb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinə istinadən yayılan xəbərlərdə Ağdamın, Kəlbəcərin və Laçın rayonlarının dekabrın 1-dək qaytarılması, bölgəyə Rusiya və Türkiyə sülhməramlılarının yerləşdirilməsi məsələsi əksini tapıb.

Ən çox oxunan isə “Prezident İlham Əliyev: Nə oldu Paşinyan? Qarabağla bağlı statusun nə oldu? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq” sərlövhəli məqalə olub.

# Qarabağın dini və maddi-mədəni tarixi (IV-XX əsrlər)

***A.Çavçavadze “Ermənilər və qan ağlayan daşlar” əsərində yazır: “Ermənilər aborigen albanları süni şəkildə qriqoryanlaşdıraraq vaxtilə sığındıqları Azərbaycan torpaqlarını “Hay ölkəsi”- Şərqi Ermənistan adlandırırlar”***

***Ermənilərin özlərini dünyanın ən qədim xalqı hesab etməsi, Yaxın Şərq və Qafqazda “Böyük Ermənistan” adlı mifik dövlətləri haqda cəfəngiyyatları tarix elmində heç bir fakta, sənədə, dəlilə söykənməyən uydurmalardır. Bu uydurmalara dünyada özlərindən başqa heç kim inanmır, lakin bu onlara bu cür utopik saxta tarixi xəritələr düzəltməyə mane olmur (saxta “Böyük Ermənistan xəritəsi”- Azərbaycan Ordusu tərəfindən azad eilmiş ərazilərdə inzibati idarə binasında aşkar olunub- yazının 1-ci hissəsində verilib, Qafqazın, Azərbaycanın, həmçinin Qarabağın etnik, siyasi, tarixi xəritələri də 2-ci hissədə verilib, 3-cü hissədə isə dini və mədəni xəritələr dərc edilib- E.B). Qarabağla bağlı saxta erməni tarixi, erməni irsi, erməni mədəniyyəti də heç bir elmi əsası olmayan, fakta söykənməyən boşboğazlıqdan o yana keçmir. Qarabağda olan hər şey Azərbaycan xalqının tarixi irsidir, qədim mədəniyyətidir, bunun minlərlə elmi sübutu var. Yazımızın 3-cü- sonuncu hissəsində bu məqamlara toxunacağıq.***

**Əvvəli burada**

1-ci hissə - https://sia.az/az/-news/politics/836156.html
2-ci hissə - https://sia.az/az/-news/politics/836350.html

*III HISSƏ*

Qarabağdakı toponimlərin 90 faizindən çoxu Azərbaycan, alban, türk toponimləridir və ermənilərə heç bir aidiyyatı yoxdur. “Qarabağ” özü Azərbaycan mənşəli sözdür. Toponimin etimoloji mənasına erkən orta əsrlərə aid tarixi qaynaqlarda (VII əsr) rast gəlinir. Qarabağ bölgəsi əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir. Elmi mülahizələrə görə, Qarabağın adı Azərbaycan dilindəki “qara” və “bağ” sözlərindən əmələ gəlmişdir. Azərbaycan dilində “qara”nın rəngdən başqa “böyük”, “əzəmətli” kimi mənaları da var. “Bağ” sözü isə özünün əsas mənasından əlavə qədim dilimizdə həm də Tanrı mənasında işlənib. Bu baxımdan, “Qarabağ” termini “qara bağ”, yəni “böyük Tanrı torpağı”, “əzəmətli bağ” və s. mənası kəsb edir. Ermənilərin çox işlətdiyi Arsak sözü də qədim alban toponimidir. Etimologiyası sak tayfasının adə ilə bağlıdır və mənası İgid sakların ölkəsi mənasını verir.

Qarabağdakı bütün mədəni tapıntılar, yazılar, tarixi tikililər və Azərbaycan xalqının irsinə məxsusdur və ermənilərə heç bir aidiyyatı yoxdur. Bunu dünya tarix elmi qəbul edib. Yuxarı Qarabağın Xankəndi, Ağdərə, Xocavənd, Şuşa, Düzən Qarabağın Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Beyləqan, həmçinin Laçın və Kəlbəcərdə arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələri, numizmatik dəlillər Qarabağın qədim maddi mədəniyyətini, etno-mədəni vəziyyətini, əhalinin sosial-iqtisadi səviyyəsini, məişət şəraitini, ümumiyyətlə, Azərbaycanın bu bölgəsinin iqtisadi, ictimai və mədəni tarixini hərtərəfli əks etdirir.

Qarabağda xalqımızın qədim mədəni irsinə ermənilərin yiyə çıxmasında dinin də böyük rolu olmuşdur. Belə ki, Azərbaycanda islamın yayılmasından sonra ərəb idarəçiləri azərbaycanlıların qədim




sərvəti olan yerli alban məbədlərini ermənilərə bağışladılar, onlar da bunu kilsə kimi istifadə edib özününküləşdirdilər.

Albaniyada erkən orta əsrdə (IV əsrdə) xristianlıq dini qəbul edildikdən sonra Azərbaycanın tarixi torpaqları olan Qarabağ ərazisində IV-VII əsrlər tikinti mədəniyyətini səciyyələndirən xristian arxitekturası tipində, memarlıq üslubunda tikililər- alban xristian dini abidələri yaradılıb.

Bu regionun əsas əhalisi gəlmə ermənilərdən fərqli olaraq, mənşə, dil və mədəniyyət etibarı ilə min illərlə Böyük Qafqaz dağları ilə Araz çayı arasında yaşamış türk mənşəli və Qafqaz dil qrupuna mənsub olan etnik qruplardan ibarət olub.

Azərbaycanın digər ərazilərindən fərqli olaraq, Qarabağ ərazisində dini ayrılığın davam etməsi bölgədə sonralar böyük dəyişikliklərin yaranmasına gətirib çıxarıb. Albaniyada xristianlığın müsəlmanlıqla əvəz olunduğu zaman Qarabağın dağlıq ərazisində yaşayan və xristianlıq dini ideologiyasına etiqad etməkdə davam edən avtoxton albanların xristian olmasından istifadə edərək, oraya XIX əsrdən etibarən çoxlu erməni ailəsi köçürülüb. Onlar yerli xristian albanları qriqoryanlaşdıraraq, assimilyasiya etmiş, hayklar adlandırıb, ərazini isə “hayk ölkəsinin bir hissəsi” kimi qələmə veriblər.

Qafqaz Albaniyasının memarlıq abidələrini tədqiq etmiş alimlər bu abidələrin bir çox xarakterik xüsusiyyətlərinə və memarlıq planlaşdırma üslublarına görə erməni dini memarlıq abidələrindən fərqləndiyini bildirib. Həmin abidələri bütün tarixi sübutlara görə, xalqımızın milli mədəni irsinə aiddir.

Həmin abidələr sırasında Laçın rayonunda yerləşən Ağoğlan monastrı, Kəlbəcər rayonunda Xudavəng monastrı, Xocavənd rayonunda Amaras monastrı, Ağdərə rayonunda Müqəddəs Yelisey məbəd kompleksini, Ağdərə rayonunda Gəncəsər monastırlarını göstərmək olar.

“Ağoğlan monastr kompleksi IX əsrdə inşa edilib. Möhkəm bazalt daşdan tikilmiş bu monastr məharətli konstruktiv həllinə görə alban xristian memarlığı abidələri içərisində xüsusi yer tutur.

Xudavəng monastr kompleksi Kəlbəcər rayonunun ərazisində, Tərtərçayın sol sahilində yerləşən Xotavəng və ya Xudavəng monastr kompleksi Xaçın Alban knyazlığının dini mərkəzi olub. Kompleksdə alban yepiskopunun iqamətgahı və dini maarif mərkəzi fəaliyyət göstərib. Alban knyazı tərəfindən inşa edilmiş baş kilsə memarlıq xüsusiyyətlərinə görə qonşu xalqların kilsələrindən fərqlənir.

Müqəddəs Yelisey Məbəd kompleksi Ağdərə rayonunda yerləşib. Dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, uca bir dağın zirvəsində tikilib və qala divarları ilə əhatə olunmuş monastr kompleksinin əsası V əsrdə qoyulub.

Qandzasar monastr kompleksi isə Ağdərə rayonunun Vəngli kəndində Xaçın çayının sol sahilində dağın üstündə ucaldılmış məşhur Qandzasar monastrı Qafqaz Albaniyası xristian memarlığının ən görkəmli abidələrindən biridir. Uzun müddət Alban xristianlarının iqamətgahı olmuş monastr dinin baş xəzinəsi mənasında Gəncəsər adlanlandırılıb.

Albaniya ərazisində yaşayan tayfaların bir qismi xristianlığı qəbul edərək xristianlaşmış, bir hissəsi isə sonradan İslamı qəbul etmişdi. Lakin Qafqazda köklü tarixləri olmayan ermənilər burada süni şəkildə öz tarixlərinin izlərini yaratmaq məqsədi ilə Alban abidələrini mənimsəmək, milli mənsubiyyətini dəyişmək yolunu tutublar. Ən çox mənimsənilməyə məruz qalan abidələr isə xristianlıq dövrü abidələridir. Bu da ondan irəli gəlir ki, bu tipli abidələr üzərindəki xristian dininin rəmz və simvolları, eləcə də daş və divar rəsmləri içərisindəki buna bənzər rəsm nümunələrini əsas götürərək bunları erməniləşdirməyə çalışırlar. Bu da öz növbəsində tarixin saxtalaşdırılmasına gətirib çıxarır.

Azərbaycanın xristianlıq dövrü abidələrinin ermənilər tərəfindən mənimsənilməsi faktlarını gürcü tarixçisi A.Çavçavadze “Ermənilər və qan ağlayan daşlar” əsərində dolğun şəkildə əks etdirmişdi. O yazır: “. . . Ermənilər aborigen albanları süni şəkildə qriqoryanlaşdıraraq vaxtilə sığındıqları Azərbaycan torpaqlarını “Hay ölkəsi”- Şərqi Ermənistan adlandırırlar”.

Lakin tədqiqatçılar göstərir ki, hətta xristianlıq dövrü abidələri belə nə erməni dininə (qriqoryanlıq), nə də erməni mədəniyyətinə və mənşəyinə uyğun gəlir. Belə ki, Azərbaycan ərazilərindəki Alban-xristian abidələrinin tarixi-arxeoloji və memarlıq baxımından tədqiqi xristianlığın bir çox xüsusiyyətlərini aydınlaşdırmağa kömək edir. Xristianlıq dövrü alban abidələrinin ermənilər tərəfindən mənimsənilməsinin bir səbəbi də, 1836-cı ildə Alban Apostol kilsəsinin ləğv edilərək Erməni Qriqoryan kilsəsinə tabe edilməsidir. Alban kilsələri ermənilərin qriqoryan kilsəsinin tabeliyinə keçdi. Bununla da Alban dini rəhbərliyi Eçmiədzinə köçürüldü.

Sonrakı əsrlərdə də ermənilər Ermənistandakı Azərbaycan dilində olan bütün toponimləri erməniləşdirdilər, oradakı tarixi tikililəri, məbədləri, qalaları, maddi mədəniyyət tapınlarını saxtalaşdıraraq erməni mədəni irsi kimi qələmə verdilər. Bu işi işğal etdikdən sonra Qarabağda da davam etdirdilər.

1971-ci ildə Ermənistan SSR Elmlər Akademiyasının məcmuəsində ABŞ-ın Kolumbiya Universitetinin professoru Nina Garsoyanın “Ermənistan IV əsrdə” (“Ermənistan” və “Sadiqlik” terminlərinin aydınlaşdırılması məsələsinə dair) məqaləsi dərc edilmişdi. Onun fikirləri ermənilərin əvvəlki bütün müasir tarixi əsərlərini tamamilə inkar etdi və daha da çox erməni tarix yazıçıları tərəfindən bəhs edilən “qədim erməni salnamələrinə” amansız bir zərbə vurdu. IV əsr dövrünü təhlil edən Amerika tarixçisi inandırıcı şəkildə göstərir ki, 1500 ildir Ermənistanda heç bir dövlətçilik və müstəqillik olmayıb, qədim xristianlaşma tarixi isə saxtadır və bütün qədim erməni tarixi və sonrakı salnamələr yalançı ruha bürünmüş, həsəd və digər xalqlar arasında fərqlənmək istəyi səbəb olmuşdur. Maraqlıdır ki, alimin məqaləsinin dərc edildiyi bu material dərhal yığışdırıldı və ləğv edildi...

İşğalçı Ermənistan Azərbaycan ərazilərinin 20 faizə yaxınını- 15 min kv km lik hissəni işğal altında saxlaması 30 ilədək çəkdi. 2020-ci ilin payızında isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu öz torpaqlarını azad etdi, Rusiyanın vasitəçiliyi ilə bağlanan sülh müqaviləsi nəticəsində tarixi ədalət və beynəlxalq hüquq bərpa edildi. Azərbaycan xalqı öz tarixi və hüquqi ərazilərində - o cümlədən Qarabağda yaşamağa davam edəcək və Ali baş komandanımızın dediyi kimi- heç bir qüvvə buna mane ola bilməz.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

Səs
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
11 noyabr
Son səhifə

# "Erkən nigahla mübarizə"

## "Milli Düşüncə Milli-Mənəvi Dəyərlərin Təbliği" İctimai Birliyi bu addakitabça çap edib

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirilən "Erkən nigahla mübarizə istiqamətində tədbirlərin təşkili" layihəsi çərçivəsində Ailə, Qadınvə Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyilə sasında "Milli Düşüncə Milli-Mənəvi Dəyərlərin Təbliği" İctimai Birliyinin çap etdiyi "Erkən nigahla mübarizə" adlı kitabça sosial problem kimi hazırda nəinki dünyada, o cümlədən, ölkəmizdə aktuallıq kəsb edən erkən yaşda nigaha "yox" demək üçün maarifləndirmə işinin gücləndirilməsinə böyük töhfədir.**




Adından da göründüyü kimi, İctimai Birlik milli-mənəvi dəyərlərin təbliğini, onların qorunmasını və inkişaf etdirilməsini əsas hədəf kimi qarşıya qoyub. Bu fakt inkar edilməzdir ki, hər bir xalqı dünyada tanıdan onun mədəniyyəti, elmi və milli-mənəvi dəyərləridir. Tarixin hər bir dövründə ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və onun gələcək nəsillərə çatdırılması aktual olub. Milli-mənəvi dəyərlər sistemində ailənin rolu daim yüksək qiymətləndirilir, ona ülvi və müqəddəs dəyərlərin tərənnümçüsü kimi baxılır, milli gene fondun saflığının qorunmasında ailəyə böyük önəm verilir. Ölkəmizdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti də bunun bariz nümunəsidir.

Kitabçanın ön sözün də bu kimi məqamlar geniş şəkildə oxucu auditoriyasına çatdırılır. Qeyd edilir ki, ölkənin inkişaf səviyyəsini, sosial-iqtisadi vəziyyəti, təhsili, insan hüquqlarının inkişafını və digər məsələləri özündə əks etdirən erkən niğahla bağlı ayrı-ayrı dövlətlər, təşkilatlar öz narahatlıqlarını ifadə edir, ailə institutunun, insan hüquqlarının müdafiəsi istiqamətində həmyerli, həm də beynəlxalq səviyyədə müzakirələr aparır, qanunlar qəbul edirlər. Əsas çağırış bu yönüm də bütün ölkələrin səylərini daha da artırması, insanlığa yaraşmayan belə halların qarşısını almaq üçün imkanların birləşdirilməsidir.

Kitabçada erkən nigahların yaranmasında gender bərabərsizliyindən, erkən evliliklə mübarizəs ahəsində həyata keçirilən Strategiyalardan, dünyada və Azərbaycanda belə halları doğuran səbəblərdən və qarşısının alınması yollarından, problemin həllini hüquqi, iqtisadi, təhsil, maarifləndirmə və sair kimi istiqamətlərdə aparmaqla məqbul nəticələr əldə etməyin mümkünlüyündən, respublika üzrə qırmızı, narıncı və sarı xəttə daxil olan bölgələrdən, eyni zamanda, belə nigahların fəsadlarından bəhs olunur, tövsiyələr diqqətə çatdırılır. Bildirilir ki, "Ailə cəmiyyətin təməlidir" prinsipindən çıxış edərək, həmçinin ailənin kiçik dövlət olaraq düzğün formalaşdırılmasının hərbir ölkənin inkişafında rolunu nəzərə alaraq kiçik yaşda evliliklərin qarşısının alınması, ailənin şüurlu ata və analar tərəfindən yaradılması, uşaqların qorunması təmin edilməlidir. Tədqiqatlar göstərir ki, qızların təhsil səviyyəsi artdıqca erkən niğahların mövcudluq faizi azalır. Bu reallıq da xüsusi qeyd olunur ki, ölkəmizdə qadınların xoşbəxt yaşamaları, həyatda fəal mövqe tutmaları üçün hər cür şərait yaradılıb.

Dövlətimiz özl ayiqli, sosial-mənəvi inkişafını təminedən, həyat strategiyasını gerçəkləşdirməyi bacaran, fəal, güclü ailələrin formalaşması üçün çalışır. Bu istiqamətdə mütəmadi olaraq cəmiyyətin diqqətinin ailə məsələlərinə yönəldilməsi, ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin ailə həyatına hazırlığı, sağlam həya tərzinin təbliği istiqamətində ardıcıl işlər görülür. Erkən nikahın ailə zorakılığının ən ağır formalarından biri olduğu təbliğ edilir.

Bu günümüzün əsas ağırışlarından biri cəmiyyətin inkişafına öz mənfi təsirini göstərən erkən niğahların qarşısını almağa dəstək olmaqdır. Hər bir məsələnin həllində maarifləndirmə işinin yüksək səviyyədə qurulması əsas amil kimi önə çəkilir. Düşünürük ki, "Milli Düşüncə Milli-Mənəvi Dəyərlərin Təbliği" İctimai Birliyinin çap etdiyi "Erkən nigahla mübarizə" adlı kitabça ictimaiyyət arasında güclü təbliğat və maarifləndirmə işlərinə öz töhfəsini verəcək. Məqsəd erkən nikahın qanun pozuntusu olmaqlayanaşı, həmdə insan psixologiyasına təhlükə yaratdığını və böyük fəsadlara yol açdığını aşılamaqdır.

# "Nar"dan vətəndaşlara bayraq hədiyyəsi!

"Nar" 9 noyabr - Dövlət Bayrağı Günü və Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə xüsusi aksiya keçirib. Vətəndaşların yüksək qələbə ruhuna dəstək məqsədilə mobil operator yeni konseptə uyğunlaşdırılmış Fəvvarələr meydanı, Bülbül prospekti və Elmlər Akademiyası metrostansiyası yaxınlığındakı mağazalarına, eləcə də digər satış mərkəzlərinə gələn abunəçilərə Azərbaycanın 3 rəngli bayrağının həkk olunduğu yaxa sancaqları hədiyyə edib. Bundan başqa paytaxtın mərkəzi küçələrində olan vətəndaşlara da yaxa sancaqları paylanılıb. Bununla da vətəndaşların qəlblərindəki bayraq sevgisini əyani olaraq yaxalarında daşımasına imkan yaradılıb.



Aksiyanın keçirilməsində məqsəd Rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda apardığı uğurlu hərbi əməliyyatlar dövründə insanların artan qələbə əzminə töhfə verməkdir.

"Nar"ın həyata keçirdiyi bayraq aksiyasının vedeosuna bu keçid vasitəsilə baxmaq olar: https://www.youtube.com/watch?v=OSrDSEV2NBI&feature=youtu.be

# "Pandemiya dövründə aztəminatlı ailələrə yardımların təşkili" layihəsi həyata keçirilir

**Azərbaycan Respublikası Uşaq və Tələbə Gənclər Dünyası İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə "Pandemiya dövründə aztəminatlı ailələrə yardımların təşkili" layihəsini həyata keçirib.**



Bütün dünyanı lərzəyə salan, dünya iqtisadiyyatını çökdürən, insanların kütləvi ölümünə səbəb olan, insanların ağ ciyərlərini tamamilə sıradan çıxaran Koronavirus bizim də iqtisadiyyatdan yan keçməyib. Xəstəlik səbəbindən bir çox iş yerləri fəaliyyətini dayandırıb, insanlar çıxılmaz vəziyyətə düşüblər. Hər gün minlərlə insan öldürücü virusa yoluxur, yüzlərlə xəstə həyatını itirir. Dünya iqtisadiyyatının əksər sahələri, xüsusilə turizm sektoru, beynəlxalq ticarət, yanacaq sənayesi, digər sahələr iflic vəziyyətinə düşməkdə, fond birjaları çökməkdədir. Təqribi hesablamalara görə, son 2.5 ay ərzində dünya iqtisadiyyatı 5 trilyon dollardan çox itkiyə məruz qalmışdır və bu itki günbəgün böyüyür. İnsanın inanmağı da gəlmir ki, bütün bunların səbəbkarı mikroskopik varlıqlardır. Həmin varlıqlar, onların növləri və təkamülü, törətdikləri kütləvi epidemiya və pandemiyalar bu gün çox ciddi problemlərə səbəb olur.

Qızdırma ilə başlayan xəstəlik daha sonra quru öskürəklə müşayiət olunur. Bundan bir həftə sonra təngnəfəslik əmələ gəlir və bəzi hallarda xəstələrin xəstəxanaya aparılmasına ehtiyac yarana bilir. Bu simptomların kimdəsə olması sizin koronavirusa tutulduğunuz anlamına gəlmir. Çünki, soyuqdəymə və qripin də simptomları belədir. İnsanlara özlərini qorumaq üçün maskadan, spirtdən və əlcəklərdən istifadə etməyi, gigiyenik qaydalara əməl etmək, öskürərkən ağzını əllə tutmaq, ictimai yerlərdə social məsafəni qorumaq əsas götürülür.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası bunları nəzərə alaraq layihələrin əksəriyyətin imkansız, şəhid, yetim, qaçqın, işsizlərə yardım etmək üçün layihələrin bir çoxunu əhaliyə ərzaq yardımı göstərməyə ayırmışdır. Belə ki, bizim cəmiyyət bu sahədə əvvəldən də işlədiyinə görə "Araz"marketlə müqavilə bağladıq, 50, 30, 20 manatlıq kuponlar hazır etdik. Bir neçə gündür ki, 89 az təminatlı ailəyə bu kuponları payladıq. Əlavə spirt, əlcək, bint, maska və Koronavirusla bağlı bukleti kuponla birlikdə hər birinə hədiyyə etdik. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına bu yardımlara görə təşəkkür edirik.

*Bəxtimşah*

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600